QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 108 (5828) **19 iyun** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymıəti 40 qəpik**

# Prezident İlham Əliyevdən sosial sahədə növbəti inqilabi addım!

*Dövlət başçısı əhalinin sosial müdafiəsini gücləndirmək məqsədilə növbəti sosial paketi təsdiq etdi*



Səh 2

5

Ramiz Mehdiyev Rusiya Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev ilə görüşüb



4

Əli Əhmədov: "Azərbaycan BMT-yə dayanıqlı inkişaf üzrə ikinci hesabat verən 14 ölkədən biri olacaq"



8

"Sosial paketin imzalanması iqtisadi inkişafın məntiqi davamıdır"



# Prezident İlham Əliyevdən sosial sahədə növbəti inqilabi addım!

*Dövlət başçısı əhalinin sosial müdafiəsini gücləndirmək məqsədilə növbəti sosial paketi təsdiq etdi*



***Azərbaycanın hər bir vətəndaşının və dövlətimizin maraqları son bir ildə də Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin mərkəzində olub. Bu müddətdə ölkəmizdə hərtərəfli dinamik inkişaf, sabitlik və əmin-amanlıq təmin edilib, beynəlxalq mövqelərimiz daha da möhkəmləndirilib. Dövlətimizin başçısının seçkilər ərəfəsində yeni iqtisadi modelə keçidlə, iqtisadi və sosial sahədə islahatların aparılacağı ilə bağlı vədləri ardıcıl olaraq yerinə yetirilir. Hər zaman fəaliyyətində xalqın dəstəyinə arxalanan Prezident İlham Əliyev xalq ilə daim təmasda olur, vətəndaşları narahat edən problemləri birbaşa onların dilindən dinləyir və bu məsələlərin həlli ilə bağlı müvafiq göstərişlər verir.***

Qeyd edək ki, Prezident İlham Əliyevin ölkə əhalisinin sosial rifahının yüksəldilməsinə dair həyata keçirdiyi işlərin miqyası gündən-günə genişlənir. Təsadüfi deyildir ki, seçkilərdə qələbə qazandıqdan sonra Prezident İlham Əliyevin imzaladığı ilk Fərman şəhid vərəsələrinə birdəfəlik ödəmənin verilməsi ilə bağlı olub.

Dövlətimizin başçısının ölkənin sosial həyatında inqilabi addımların davamlı xarakter aldığını göstərən qərarları ilə ötən bir il ərzində minimum pensiya məbləği, minimum əməkhaqqı orta hesabla 40 faiz artırıldı. Cənab İlham Əliyevin 2019-cu il 25 fevral tarixli Sərəncamı ilə isə 600 minədək şəxsə, o cümlədən 300 min əlilliyi olan şəxsə yönələn sosial müavinətlər, təqaüdlər orta hesabla 100 faiz artırıldı, əlavə olaraq bir sıra kateqoriyalardan olanlar üçün Prezidentin aylıq təqaüdləri təsis olundu.

Bu ilin fevral ayının sonlarında imzalanan Sərəncamla məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün aylıq müavinət 50 faiz artırıldı ki, bu da minlərlə məcburi köçkünün rifah halının yüksəldilməsinə xidmət edir. Həmçinin bu il 110 minədək tələbənin də təqaüdlərinin ciddi şəkildə artırılması təmin olundu. Azərbaycan Prezidentinin humanizm prinsiplərinə söykənən sosialyönümlü siyasətini, daim hər bir vətəndaşının yanında olduğunu təsdiqləyən digər bir addım isə 800 mindən çox insanın problemli kredit məsələsini aradan qaldıracaq Fərman oldu. Dövlətimizin başçısı tərəfindən imzalanan daha bir Fərmanla isə istismarına icazə verilməmiş çoxmənzilli yaşayış binalarının sakinlərindən ibarət 350-400 min insanın mənafeyi təmin olundu. Dövlət başçısının bir Fərmanına görə, müharibə veteranlarına Azərbaycan Respublikası Prezidentinin 80 manat məbləğində təqaüdü təsis olundu.

Göründüyü kimi, son bir ildə sosial sahədə atılan bu mütərəqqi addımlar Azərbaycan vətəndaşının maraqlarının dövlətin həyata keçirdiyi siyasətin mərkəzində dayandığını bir daha təsdiqləyir. Bütün atılan addımlar Prezident İlham Əliyevin güclü sosial siyasətinin başlıca hədəfinin əhalinin rifahının təminatı olduğunu, bu siyasətin əsasında vətəndaş amili, sosial ədalət və humanizm prinsiplərinin dayandığını bir daha təsdiq edir və ictimaiyyət tərəfindən rəğbətlə qarşılanır.

Əlbəttə ki, Azərbaycada əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində genişmiqyaslı tədbirlər bu gün də davam etdirilir. Məhz, Prezident İlham Əliyevin imzaladığı sosial paket bu istiqamətdə həyata keçirilən dövlət siyasətinin davamı, silsilə tədbirləri növbəti mərhələsidir. Ötən gün imzalanmış sərəncamlar insanların sosial müdafiəsini gücləndirmək və onlara dövlət qayğısını daha da artırmaq məqsədinə xidmət edir.

Belə ki, Prezident İlham Əliyevin imzaladığı müvafiq sərəncamlara əsasən dövlət büdcəsindən maliyyələşən təşkilatlarda çalışan işçilərin aylıq vəzifə maaşlarının 2019-cu il sentyabrın 1-dən orta hesabla 40 faiz artırılması nəzərdə tutulur.

Onların sırasına Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti və aparatı, Gəncə bölməsinin aparatı, Heydər Əliyev Mərkəzi, "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi, Azərbaycanda Atatürk Mərkəzi, Azərbaycan Respublikasının dövlət arxivləri və onların filialları, rayon (şəhər) dövlət arxivləri, Azərbaycan Respublikasının Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Dövlət Film Fondu, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının Katibliyi və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin rəhbər və digər işçiləri daxildir.

Sərəncamda Azərbaycan Respublikasının Nazirlər Kabinetinə dövlət orqanlarının tabeliyində olan dövlət büdcəsindən maliyyələşdirilən qurumların dövlət qulluqçusu olmayan işçilərinin (Vahid Tarif Cədvəli əsasında əməkhaqqı alan işçilər istisna olmaqla) vəzifə maaşlarının 2019-cu il sentyabrın 1-dən orta hesabla 40 faiz artırılmasını təmin etmək tapşırılır.

Həmçinin Nazirlər Kabinetinə tapşırılır ki, qeyd edilən rəhbər və digər işçilərin vəzifə maaşlarının yeni məbləğlərini təsdiq etsin.

Göründüyü kimi, dövlət başçısının yeni sosial paketi əhalinin rifahına ciddi dəstək tədbirlərinin uğurla davam etməsinə, nəticə etibarilə əhalinin rifah halının yüksəldilməsi sahəsində ardıcıl irəliləyişlərin reallaşdırılmasına imkan verir.

***"SƏS" Analitik Qrupu***

## Rəsmi xronika

Azərbaycan Prezidenti İlham Əliyev iyunun 18-də minimum aylıq əməkhaqqının artırılması haqqında Sərəncam imzalayıb. AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən minimum aylıq əməkhaqqının məbləği 250 manat müəyyən edilib. Sərəncam 2019-cu il sentyabrın 1-dən qüvvəyə minir.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin əməkhaqqının artırılması haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin hərbi qulluqçularının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin və Tibb baş idarəsinin hərbi qulluqçularının, xüsusi rütbəsi olan əməkdaşlarının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında Sərəncam imzalayıb.

***

Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında Sərəncam imzalayıb.

# Neftçaladakı Xıllı nərə balıqartırma zavodunda yetişdirilmiş körpə nərə balıqlarının Xəzərə buraxılması mərasimi olub

*Mərasimdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib*

***İyunun 17-də Xəzər dənizinin ekoloji mühitinin yaxşılaşdırılması üzrə IDEA İctimai Birliyinin və Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşlığı çərçivəsində Neftçalada yerləşən Xıllı nərə balıqartırma zavodunda yetişdirilmiş körpə nərə balıqlarının suya buraxılması mərasimi keçirilib.***



AZƏRTAC xəbər verir ki, tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev və BMT Ətraf Mühit Proqramının xoşməramlı səfiri, əfsanəvi xokkeyçi Vyaçeslav Fetisov iştirak ediblər.











Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Xıllı nərə balıqartırma zavodu 2003-cü ildə istismara verilib. Bu zavod Xəzər regionunda ən iri nərə balıqartırma müəssisəsidir. Burada bölgə, nərə, kələmo və uzunburun kimi nərə cinsli balıq növləri artırılaraq Kür çayının mənsəbinə buraxılır. Zavodun istehsal gücü ildə 15 milyona qədər nərə balıq körpələridir. Ümumi sahəsi 15 hektar olan zavodda 4 nohur, 54 beton hovuz var.

Müəssisə ilə tanışlıqdan sonra Xıllı nərə balıqartırma zavodunda yetişdirilmiş körpə nərə balıqlarının suya buraxılması mərasimi oldu.

Mərasimdə iştirak edən BMT Ətraf Mühit Proqramının xoşməramlı səfiri, əfsanəvi xokkeyçi Vyaçeslav Fetisov jurnalistlərə müsahibəsində dedi: "Hər dəfə Azərbaycana gələndə təəssürat içində oluram. Bu gün mənim üçün daha bir səhifə açılıb. Leyla xanım Əliyeva ekologiya problemi ilə kifayət qədər çoxdan və ciddi məşğul olur. O, aydın başa düşür ki, Yer üzündə ən böyük sərvət insandır. İnsan isə yalnız ekologiyanın normal olduğu yerdə, normal təbii şəraitdə salamat qala bilər. Odur ki, bu işlə məşğul olur. Əlbəttə, bu, Birləşmiş Millətlər Təşkilatında təbiəti mühafizə ilə məşğul olan təşkilatın səfiri kimi məni çox sevindirdi. Bu problemlə getdikcə daha çox məşğul olduğum üçün deyə bilərəm ki, indi bu, ən başlıca məsələdir".

Qeyd edək ki, son onilliklər ərzində Xəzər dənizinin nadir balıq növlərinin populyasiyaları insan fəaliyyətinin mənfi təsirləri, çirklənmə, qaçaqmalçılıq və həddən artıq ovlanma nəticəsində məhvolma təhlükəsi həddinə çatıb. Problemin hərtərəfli həlli məqsədilə IDEA İctimai Birliyi tərəfindən Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Böyük Britaniyanın "Mavi Dəniz Fondu" (BLUE) ilə birlikdə müxtəlif mühafizə, bərpa və ictimai maarifləndirmə tədbirləri həyata keçirilir.





# IDEA ilə Ümumdünya Turizm Təşkilatı arasında Anlaşma Memorandumu imzalanıb

İyunun 17-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın BMT-nin Ümumdünya Turizm Təşkilatının (ÜTT) baş katibi Zurab Pololikaşvili ilə görüşü olub. AZƏRTAC xəbər verir ki, görüşdə IDEA və ÜTT arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. Anlaşma Memorandumu tərəflər arasında gələcək fəaliyyət çərçivəsini və əməkdaşlıq sahələrini müəyyənləşdirir. Sənədə əsasən, hər iki təşkilat turizmin ekoloji dayanıqlığa təsir edən amillərdən biri kimi təşviq edilməsi istiqamətində birgə səylər göstərəcək.

İmzalanma mərasimindən sonra Leyla Əliyeva ilə Zurab Pololikaşvili arasında ikitərəfli görüş keçirilib. Görüşdə Leyla Əliyeva ÜTT tərəfindən dünyada turizmin inkişafının əlaqələndirilməsi istiqamətində aparılan fəaliyyəti yüksək qiymətləndirərək, turizm sektorunun inkişafının planetin dayanıqlı gələcəyi üçün əhəmiyyətini vurğulayıb. Leyla Əliyeva zəngin mədəni irsi və müasir infrastrukturu ilə yanaşı, Azərbaycanda bol təbii sərvətlər və rəngarəng coğrafi landşaftın mövcud olmasını qeyd edərək, həyata keçiriləcək birgə layihələrin ölkədə ekoturizmin inkişafına böyük töhfə verəcəyindən əminliyini vurğulayıb.

Zurab Pololikaşvili rəhbərlik etdiyi təşkilat ilə IDEA arasında əməkdaşlığın qurulmasından məmnunluğunu bildirərək, Azərbaycanın cəlbedici turizm məkanı kimi potensialının inkişaf etdirilməsi üçün geniş imkanların olduğunu qeyd edib. Tərəflər Azərbaycanda və regionda birgə layihələrin həyata keçirilməsi və beynəlxalq tədbirlərin təşkili perspektivlərini müzakirə ediblər.

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva BMT-nin xoşməramlı səfiri Vyaçeslav Fetisovla görüşüb



İyunun 17-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva ilə ölkəmizdə səfərdə olan BMT Ətraf Mühit Proqramının (UNEP) xoşməramlı səfiri, əfsanəvi xokkeyçi Vyaçeslav Fetisov arasında görüş olub. AZƏRTAC xəbər verir ki, görüşdə ətraf mühitin mühafizəsi, iqlim dəyişikliyi ilə mübarizə və davamlı inkişaf məsələləri, bununla əlaqədar yerli və regional səviyyədə görülən işlər və irəli sürülən təşəbbüslər, xüsusən də Xəzər dənizinin bioloji resurslarının mühafizəsinə yönəlmiş səylər müzakirə edilib.

Leyla Əliyeva IDEA-nın son illər əldə etdiyi nailiyyətləri, hazırda həyata keçirilən layihələri və gələcək planları haqqında BMT rəsmisinə məlumat verib. Tərəflər, həmçinin ətraf mühit və davamlı inkişaf məsələləri üzrə BMT-nin xoşməramlı səfirləri qismində həyata keçirdikləri fəaliyyət və əməkdaşlıq perspektivləri ətrafında fikir mübadiləsi aparıblar.

# Əli Əhmədov: "Azərbaycan BMT-yə dayanıqlı inkişaf üzrə ikinci hesabat verən 14 ölkədən biri olacaq"



Azərbaycan dünyanı narahat edən bütün məsələlərə öz töhfəsini verməyə hazırdır və bu layihələrdə yaxından iştirak edir. Trend-in məlumatına görə, bunu Baş nazirin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov "Ədalətli sülh və Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasında Ombudsmanların rolu" mövzusunda keçirilən Ombudsmanların XVI Bakı Beynəlxalq Konfransında çıxışı zamanı deyib. Onun sözlərinə görə, bu gün Azərbaycanda Milli İnsan Hüquqları Günüdür: "İnsan hüquqlarının qorunmasından daha vacib şey yoxdur. Bu məqsədlə müxtəlif təsisatlar yaradılır ki, onlardan da biri ombudsman institutudur. Biz məmnunuq ki, Azərbaycan ombudsmanı qısa müddət ərzində digər ölkələrin ombudsmanları ilə səmərəli əməkdaşlıq yarada bilib".

Ə.Əhmədov bildirib ki, bu gün BMT-nin həyata keçirdiyi dayanıqlı inkişaf üzrə qlobal layihə 2030-cu ilədək dünyanın müsbət baxımdan dəyişməsini nəzərdə tutur:

"İyulun 15-də dünyanın çox az - cəmi 14 ölkəsi dayanıqlı inkişaf üzrə ikinci hesabatını BMT-yə verəcək ki, onlardan biri də Azərbaycandır".

Baş nazirin müavini qeyd edib ki, Azərbaycan gənc dövlət olaraq böyük tərəqqi yolunu keçib, bu gün ölkə vətəndaşları inkişaf edən Azərbaycanı görməkdədirlər. Dövlət insanların layiqli həyat yaşaması üçün müxtəlif layihələr həyata keçirir.

Ə.Əhmədovun sözlərinə görə, vacib məsələlərdən biri sülhün təmin edilməsidir: "Etibarlı sülh olmadan dayanıqlı inkişaf ola bilməz. Çox təəssüf ki, Azərbaycan xalqı sülhsevər olsa da, 30 ildən çoxdur ki, buna ehtiyacı olan xalqlardan birinə çevrilib. 1 milyon qaçqın və məcburi köçkün əhalinin 10 faizini təşkil edir. Bu insanların hüquqları 30 ildir ki, pozulur. Azərbaycan tərəfinin Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli üçün etdiyi cəhdlər nəticəsiz qalıb".

Baş nazirin müavini əlavə edib ki, Azərbaycan dövləti bu insanlara görə üzərinə götürdüyü öhdəlikləri layiqincə yerinə yetirir, amma onların hüquqlarının təmini məsələsi açıq qalıb: "Ümid edirik ki, ombudsmanlar bununla bağlı öz səylərini birləşdirməyə çalışacaqlar".




# Daşkənddə İmadəddin Nəsiminin özbək dilində kitabı çap olunub

***Özbəkistanda böyük Azərbaycan şairi İmadəddin Nəsiminin anadan olmasının 650 illik yubileyi münasibətilə "Cananı sevirəm" adlı qəzəllər kitabı özbək dilində çap olunub. AZƏRTAC xəbər verir ki, Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) layihəsi ilə çap olunan kitabı Azərbaycan dilindən tanınmış şair və tərcüməçi Tahir Qəhhar çevirib.***

Layihənin rəhbəri və ön sözün müəllifi AMM-in direktoru Samir Abbasov, elmi məsləhətçisi Sona Vəliyevadır. Ön sözdə bildirilir ki, Prezident İlham Əliyevin Sərəncamı ilə 2019-cu il Azərbaycanda "Nəsimi ili" elan edilib və bu münasibətlə dünyanın müxtəlif ölkələrində İmadəddin Nəsiminin kitabları çap olunur, böyük şairin həyatı və yaradıcılığı ilə bağlı müxtəlif tədbirlər keçirilir.

# Bakıda Ombudsmanların XVI Beynəlxalq Konfransı keçirilib




***İyunun 18-də paytaxtımızda Ombudsmanların XVI Bakı Beynəlxalq Konfrans işə başlayıb. AZƏRTAC xəbər verir ki, “Ədalətli sülh və Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasında ombudsmanların rolu” mövzusunda keçirilən konfrans Ombudsman Aparatının təşkilatçılığı və UNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının dəstəyi ilə baş tutub.***

Tədbirdə əvvəlcə Azərbaycanın dövlət himni səsləndirilib. Konfransı açan Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Elmira Süleymanova hələ 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti dövründə qadınlara seçki hüququnun verildiyini deyib. Bildirib ki, bu gün müasir müstəqil Azərbaycan dövləti vətəndaşlarının sosial rifahının yaxşılaşdırılması üçün bütün imkanlarını səfərbər edib. Bu səylər, görülən işlər nəticəsində Azərbaycan artıq dünyada öz sözü, yeri olan dövlət kimi tanınır.

“Ölkəmizdə təkcə iqtisadi, sosial sahədə deyil, eləcə də vətəndaşlarının hüquqlarının qorunması istiqamətində də uğurlu addımlar atılır. Bu sahə Azərbaycan Prezidentinin ən çox diqqət ayırdığı istiqamətlərdəndir. Azərbaycanda dövlət və vətəndaş həmrəyliyi var. Ombudsman təsisatının yaradılması da Azərbaycan dövlətinin öz vətəndaşlarının hüquqlarının qorunması məsələsinə olan diqqətinin bariz nümunəsidir”,- deyə Elmira Süleymanova vurğulayıb.

Baş Nazirin müavini Əli Əhmədov insan hüquqlarının müasir cəmiyyətin ən ali dəyərlərindən olduğunu bildirərək deyib: “Azərbaycan vətəndaşlarının hüquqlarının qorunmasında ən vacib təsisatlardan biri də ombudsmandır. Sülh və dayanıqlı inkişaf məqsədlərinə nail olunmasında ombudsmanların böyük rolu var”.

Dayanıqlı İnkişaf Məqsədləri barədə danışan Əli Əhmədov Azərbaycan Hökumətinin bu proqramı uğurla icra etdiyini söyləyib. Qeyd edib ki, bu proqramın ən əsas qayələrindən biri sülhün təmin edilməsidir. Etibarlı sülh olmadan dayanıqlı inkişaf, dayanıqlı inkişaf olmadan sülh olmur. Azərbaycan xalqı sülhsevər cəmiyyət olmasına baxmayaraq, 30 ilə yaxındır ki, işğala məruz qalıb. Torpaqlarımızın 20 faizi Ermənistan tərəfindən işğal olunub, 1 milyondan çox soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşüb.

Milli Məclisin Sədr müavini Bahar Muradova Azərbaycanın insan hüquqları məsələlərinin müzakirə olunduğu və uğurlu nəticələrin əldə edildiyi məkan olduğunu deyib. Bildirib ki, Azərbaycan dövləti multikulturalizmi, həmrəyliyi vətəndaşlarımızın həyat tərzi kimi görür. Azərbaycan bu istiqamətdə daim dünya ölkələrini bir araya gətirir. Azərbaycan dünyaya sülh mesajı verən ölkə kimi də tanınır.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ məsələsinə toxunan B.Muradova deyib ki, Ermənistan dövlətinin qeyri-konstruktiv mövqeyi münaqişənin həllində əsas problemlərdən biridir. Ermənistan dövləti Metsamor AES-in fəaliyyətini davam etdirməklə dayanıqlı inkişaf məqsədlərinə zərbə vurur.

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İshaqzai Dayanıqlı İnkişaf Məqsədləri barədə danışıb. Bildirib ki, insan hüquqları məsələsi bu proqramın əsas qayələrindən birini təşkil edir. Ombudsmanlar insan hüquqlarının qorunmasında əhəmiyyətli rol oynayır. İnklüziv cəmiyyətin yaradılmasında ombudsmanların rolu böyükdür. Azərbaycan Dayanıqlı İnkişaf Məqsədlərinə sadiq dövlətdir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova deyib ki, qadın və uşaq hüquqları məsələsi insan hüquqlarının əhəmiyyətli hissəsini təşkil edir. Hələ 1918-ci ildə Azərbaycanda qadınlara seçib-seçilmək hüququ verilmişdi.

Digər sahələr kimi, qadın və uşaq hüquqlarının təmin olunması da Azərbaycan dövlətinin diqqət mərkəzindədir. Azərbaycanda gender bərabərliyi ilə bağlı qanunların qəbul edilməsində Birinci vitse-prezident Mehriban Əliyevanın böyük rolu olub.

Bu gün qadınlar Azərbaycanın iqtisadiyyatında, elmində və digər sahələrində əhəmiyyətli rol oynayırlar. Qadınlar sahibkarlıqla məşğul olur, ölkəmizin inkişafına töhfələrini verirlər.

Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri, UNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının Baş katibi Elnur Sultanov çıxış edərək 1993-cü ildə ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra Azərbaycanda insan hüquqları sahəsində böyük addımlar atıldığını deyib. Bildirib ki, bu gün bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir. Azərbaycan bir çox beynəlxalq təşkilatlarla, o cümlədən UNESKO ilə yaxından əməkdaşlıq edir. 2008-ci ildən Azərbaycan Prezidentinin təşəbbüsü ilə başlanan “Bakı Prosesi” bu əməkdaşlığın bariz nümunəsidir. Bu il Milli Komissiyanın yaranmasının 25 illiyinin qeyd olunduğunu bildirən Baş katib Azərbaycan-UNESKO əlaqələrinin genişlənməsində Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti, UNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın müstəsna xidmətlərini vurğulayıb. Azərbaycan UNESKO ilə birgə bir sıra Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsində əhəmiyyətli rol oynayır.

Konfrans çərçivəsində keçirilən plenar iclasda ombudsman Elmira Süleymanova “Ədalətli sülh dayanıqlı inkişaf məqsədlərinə nail olunmasının qarantıdır”, Türkiyənin baş ombudsmanı Şeref Malkoç “Yaxşı idarəçilik və bürokratiyanın Dayanıqlı İnkişaf Məqsədlərinə təsirləri”, Rusiyanın İnsan Hüquqları üzrə Müvəkkilinin müşaviri Vyaçeslav Tolmaçov “Dayanıqlı İnkişaf Məqsədləri və onun indikatorları kontekstində Rusiyanın hüquq müdafiə gündəliyi”, İqtisadiyyat nazirinin müavini Sevinc Həsənova “Azərbaycanda dayanıqlı inkişafa yönəlmiş islahatlar”, Rusiyanın Tatarıstan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Sariya Saburskaya “Dayanıqlı inkişaf, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsində tərəfdaşlıq: Tatarıstan Respublikası ombudsmanının təcrübəsi”, Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Ülkər Bayramova “Naxçıvan Muxtar Respublikasında Dayanıqlı İnkişaf Məqsədlərinin icrası sahəsində görülən işlər” mövzularında məruzələrlə çıxış ediblər. Tədbir müzakirələrlə davam edib.

## Mərakeş qəzeti: Heydər Əliyevin əziz xatirəsi hər bir Azərbaycan vətəndaşının qəlbində yaşayır

Mərakeşin “Əl Bəyan Əl-Yaum” qəzetində Azərbaycanın Mərakeşdəki səfiri Oktay Qurbanovun müəllifi olduğu “15 iyun - Azərbaycanın Milli Qurtuluş Günüdür” başlıqlı məqalə dərc edilib.


بيان اليوم
ذكرى 15 يونيو – يوم النجاة الوطني الأذربيجاني
بقلم: أوكتاي قربانوف

AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycanın müstəqilliyini bərpa etdikdən sonra üzləşdiyi çətinliklərdən bəhs olunur. Qeyd edilir ki, müstəqilliyin ilk illərində ölkənin siyasi hakimiyyətinin səriştəsizliyi ucbatından boşluqlar yaranmışdı. Ermənistanın təcavüzü respublikada vəziyyəti daha da gərginləşdirmişdi. Yazıda bildirilir ki, xalqın tələbi ilə siyasi hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev Azərbaycanı böyük bəlalardan, müstəqilliyini itirmək təhlükəsindən xilas etdi. Ulu Öndər güclü, nizami ordu quruculuğu işini əsas vəzifə kimi qarşıya qoydu.

Vurğulanır ki, həyatının mənasını xalqına və dövlətinə xidmətdə görən Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə gördüyü əvəzsiz işlər Azərbaycanı beynəlxalq arenada böyük nüfuza malik bir ölkəyə çevirdi. Diqqətə çatdırılır ki, 1994-cü il sentyabrın 20-də Azərbaycanın ən yeni tarixində dönüş nöqtəsi olan neft müqavilələri imzalandı. Sonradan “Əsrin müqaviləsi” adlandırılan bu Saziş ölkəmizin gələcək inkişafına və təhlükəsizliyinə etibarlı zəmin yaratdı, Azərbaycan artıq bütün dünyada tanınmağa başladı. Məqalədə bildirilir ki, bu gün Azərbaycan Heydər Əliyev irsinə və xarici siyasət kursuna sadiq qalan Prezident İlham Əliyevin rəhbərliyi ilə dinamik inkişaf edir, ölkədə sabit demokratik və iqtisadi islahatlar aparılır. Azərbaycan tarixinin taleyüklü hadisələrlə dolu 30 ildən artıq dövrü, ölkənin siyasi, iqtisadi və mədəniyyətinin yenidən dirçəlişi Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli lider Heydər Əliyevin əziz xatirəsi hər bir Azərbaycan vətəndaşının qəlbində yaşayır.

## Ramiz Mehdiyev Rusiya Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev ilə görüşüb



Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyev Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev ilə görüşüb. AZƏRTAC xəbər verir ki, bu barədə jurnalistlərə Rusiya Təhlükəsizlik Şurası Aparatının mətbuat katibi Yevgeni Anoşin məlumat verib. O bildirib ki, iyunun 18-də təhlükəsizlik məsələlərinə nəzarət edən yüksək vəzifəli şəxslərin Rusiyanın Ufa şəhərində keçirilən X beynəlxalq görüşü çərçivəsində baş tutan ikitərəfli görüşdə güc və xüsusi xidmət idarələrinin qarşılıqlı fəaliyyəti, eləcə də bu ilin sonunadək təhlükəsizlik sahəsində əməkdaşlıq planı müzakirə olunub.

## Nazirlik: Cari ildə sənaye parklarında 12 rezident fəaliyyətə başlayacaq

İndiyədək ölkədəki sənaye parklarında 40-dan çox rezident qeydiyyata alınıb. Bu rezidentlərin 24-ü artıq istehsal fəaliyyətinə başlayıb. Bu il daha 12 rezident istehsala başlayacaq. İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, hazırda Azərbaycanda 5 sənaye parkı fəaliyyət göstərir. Bunlar Sumqayıt Kimya, Balaxanı, Mingəçevir, Qaradağ və Pirallahı sənaye parklarıdır.

# Düşənbədə Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin V Zirvə toplantısı keçirilib

*Azərbaycanın Baş Naziri Novruz Məmmədov Zirvə toplantısında iştirak edib*

***İyunun 15-də Tacikistanın paytaxtı Düşənbədə Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin beşinci Zirvə toplantısı keçirilib. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədov Zirvə toplantısında iştirak edib.***









Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon tədbirdə iştirak edən dövlət və hökumət başçılarını qarşıladı. Dövlət və hökumət başçıları birgə foto çəkdirdilər. Prezident Emoməli Rəhmon Zirvə toplantısını açaraq nümayəndə heyətlərinin rəhbərlərini salamladı. Dövlət başçısı terrorizm, ekstremizm kimi bəlaların regionda təhlükəsizliyə əsas təhdid olduğunu diqqətə çatdırdı. Qeyd etdi ki, bu təhdidlər region ölkələri arasında əməkdaşlığın daha da gücləndirilməsini zəruri edir. Prezident regionda ümumi maraqların təmini naminə nəqliyyat infrastrukturu layihələrinin genişləndirilməsinin önəmini bildirdi.

Bundan əvvəl quruma sədrlik edən Çin Xalq Respublikasının Sədri Si Cinpin çıxış edərək Asiya regionunda sülhün və təhlükəsizliyin təmin edilməsinin ümumi məqsəd olduğunu bildirdi. O, bütün sahələrdə birgə əməkdaşlığın inkişaf etdirilməsinin zəruriliyini vurğuladı. Regionda mövcud olan tolerantlığın qorunmasının vacibliyini vurğulayan Si Cinpin Asiyada əməkdaşlığın inkişafına maneə törədən təhdidlərdən bəhs etdi.

Zirvə toplantısında çıxış edən Baş Nazir Novruz Məmmədov tədbirin yüksək səviyyədə təşkilinə görə Prezident Emoməli Rəhmona təşəkkürünü bildirdi, Tacikistan Respublikasının quruma sədrliyinin Asiya regionunda sülh, sabitlik və təhlükəsizliyin möhkəmləndirilməsinə töhfə verəcəyinə əminliyini ifadə etdi.

Baş Nazir Novruz Məmmədov qeyd etdi ki, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə Asiya qitəsində sülh, sabitlik və təhlükəsizliyin təmin edilməsi üçün dialoq və əməkdaşlıq platformasıdır. "Şübhəsizdir ki, silahlı münaqişələr, terrorizm, irqçilik, radikalizm, dözümsüzlük və kiber təhlükələr beynəlxalq sülh və təhlükəsizlik üçün ciddi risklər doğurur. Beynəlxalq və regional təhlükəsizlik bir-biri ilə sıx bağlıdır. Dünyanın bir bölgəsində sülh və sabitliyin pozulması digər regionlarda da təhlükəsizlik üçün təhdidlər yaradır", - deyə Novruz Məmmədov bildirdi.

Ermənistanın 30 ilə yaxındır beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq Azərbaycana qarşı işğalçılıq siyasətini davam etdirdiyini diqqətə çatdıran Baş Nazir bu siyasət nəticəsində Azərbaycan ərazisinin 20 faizinin - Dağlıq Qarabağın və ətrafındakı yeddi rayonun Ermənistan tərəfindən işğal olunduğunu vurğuladı. Bildirdi ki, münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurası, Qoşulmama Hərəkatı, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Avropa Şurası və digər təşkilatlar tərəfindən müvafiq qərar və qətnamələr qəbul edilib. Həmçinin Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə çərçivəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həllini dəstəkləyən bəyanat və qərarlar qəbul olunub. Münaqişə beynəlxalq hüququn normalarına, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə və Helsinki Yekun Aktına əsasən Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində həll edilməlidir.

Novruz Məmmədov dedi ki, Azərbaycan bu gün hərtərəfli və dinamik inkişaf yolu ilə irəliləyən müasir dövlətdir. Ölkəmizin iştirakçısı və təşəbbüskarı olduğu müxtəlif beynəlxalq layihələrin geniş regional əməkdaşlıq üçün möhkəm əsas yaratdığını vurğulayan Baş Nazir dedi: "Biz nəqliyyat infrastrukturuna - dəniz limanları, dəmir yolları, hava limanları və magistral yollara böyük sərmayə yatırmaqla əlverişli coğrafi mövqeyimizi real nəqliyyat imkanlarına çevirmişik. Bu gün Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin kəsişdiyi vacib tranzit ölkəyə çevrilib. 2017-ci ildə istifadəyə verilmiş Bakı-Tbilisi-Qars dəmir yolu xətti Asiya və Avropa arasında vacib logistik bağlantıdır. Bütün bunlar həm də beynəlxalq əməkdaşlıq formatını yaradır, xalqları və ölkələri bir-birinə bağlayır, sülh və sabitliyə xidmət edir".

Azərbaycanın 2019-2022-ci illərdə Qoşulmama Hərəkatına sədrlik edəcəyini xatırladan Baş Nazir bildirdi ki, ölkəmiz Qoşulmama Hərəkatının yaratdığı çoxtərəfli platformadan istifadə edərək beynəlxalq sülh və təhlükəsizliyin möhkəmləndirilməsi, ölkələr arasında dialoq və əməkdaşlığın inkişaf etdirilməsi üçün səylərini əsirgəməyəcək.

Digər dövlət və hökumət başçıları da çıxışlarında Asiya regionunda ölkələrin suverenliyinə, ərazi bütövlüyünə hörmət, mehriban qonşuluq, daxili işlərə qarışmamaq prinsipləri əsasında əməkdaşlığın qurulmasının önəmini qeyd etdilər, mövcud münaqişələrin regionun təhlükəsizliyinə ciddi təhdid olduğunu vurğuladılar. Regionun sabitliyinin təmini üçün, ilk növbədə, bu münaqişələrin nizamlanmasının vacibliyi bildirildi.

Həmçinin çıxışlarda narkotik qaçaqmalçılığının, nüvə silahının yayılmasının qarşısının alınmasının, terror qruplaşmalarına qarşı mübarizənin zəruriliyi diqqətə çatdırıldı, böyük İpək Yolunun bərpasına dəstək ifadə olundu. Sonda Zirvə toplantısının Bəyannaməsi qəbul edildi.

***

Səfər çərçivəsində Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədov ilə Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun görüşü olub. Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin hazırkı səviyyəsindən məmnunluq ifadə olundu, həmçinin müxtəlif sahələrdə qarşılıqlı əməkdaşlığın daha da genişləndirilməsinə dair fikir mübadiləsi aparıldı.

## Müdafiə Nazirliyi: "Ermənistanın işğal edilmiş ərazilərimizdə keçirdiyi təlimlər tam nəzarətimiz altındadır"

***Azərbaycanın işğal edilmiş ərazilərində Ermənistan silahlı qüvvələrinin iyunun 17-də başladığı "genişmiqyaslı" hərbi təlimlər Ordumuzun ön xətt bölmələri tərəfindən xüsusi müşahidə vasitələri və cihazları ilə ciddi izlənilir və tam nəzarətdə saxlanılır.***



Müdafiə Nazirliyinin mətbuat xidmətinin AZƏRTAC-a daxil olan məlumatında bildirilib: "Dəfələrlə olduğu kimi, qarşı tərəf bu dəfə də cüzi sayda şəxsi heyət və texnikanı cəlb etməklə keçirdiyi məşğələni "genişmiqyaslı" təlim kimi təqdim etməyə çalışır. Düşmən tərəfinin təlimlərə guya 10 min şəxsi heyət və çoxlu sayda döyüş texnikası cəlb etməsi barədə yaydığı məlumatın tam əksinə, təqdim edilən videodan da görünür ki, ermənilər həmişə olduğu kimi yenə də özünəməxsus saxtakarlıq etməklə öz ictimaiyyətini aldadırlar".

## Hikmət Hacıyev: "Azərbaycan həqiqətlərini əks etdirən hər bir tədbir faydalıdır"

***Xarici ölkələrdə Azərbaycan mövzusunda təşkil olunan tədbirlər ölkəmizlə bağlı həqiqətlərin hədəflərə çatdırılması üçün çox vacibdir.***



Bu fikri AZƏRTAC-a açıqlamasında Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib. Azərbaycanın Ankaradakı səfirliyində təşkil olunan konfransda iştirakçıların suallarını yüksək dəyərləndirən şöbə müdiri deyib: "Ünvanlanan suallardan da göründüyü kimi, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda bütün sahələri əhatə edən islahatlar, o cümlədən xarici siyasətimizin ayrı-ayrı istiqamətləri bizimlə tərəfdaşlıq etmək istəyənlərin sayını artırmaqdadır. Dövlətimizin başçısının bildirdiyi kimi, bütün sahələr üzrə səmərəli əməkdaşlıq etmək istəyən tərəflərlə əlaqə qurmaq Azərbaycan üçün prioritet məsələdir. Bir sıra ölkələr var ki, onların Ankarada diplomatik nümayəndəlikləri var, amma Bakıda yoxdur. Suallardan da göründüyü kimi, bu konfransda ölkəmizin imkanlarından, perspektivdə olan layihələrimizdən bəhrələnmək istəyən tərəflər üçün cəlbedicilik yarada bilən daha bir addım atdıq".

# Heydər Əliyev adına Hərbi Lisey kursantlarının buraxılış mərasimi keçirilib



***İyunun 17-də Heydər Əliyev adına Hərbi Liseyin 2019-cu il buraxılışı münasibəti ilə tədbir keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə iştirak edib.Əlahiddə Ümumqoşun Ordu komandanı, general-leytenant Kərəm Mustafayev Ali Məclisin Sədrinə mərasimə hazırlıq barədə raport verib. Ali Məclisin Sədri kursantları salamlayıb. Kursantlar orkestrin müşayiəti ilə Azərbaycanın dövlət himnini ifa ediblər.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Heydər Əliyev adına Hərbi Liseyin 19-cu buraxılışı münasibətilə liseyin kursant, zabit və müəllimlərini, valideynləri və tədbir iştirakçılarını təbrik edərək deyib: Ümummilli liderimiz Heydər Əliyev gənclərin hərb sənətinə yiyələnməsi vacibliyini önə çəkərək deyirdi: "Gəncləri hərbi məktəblərə daxil olmaq və Silahlı Qüvvələrimizin zabit korpusunda xidmət etmək üçün hazırlamaq qarşımızda duran ən mühüm vəzifədir". Ötən əsrin 70-ci illərində Ulu Öndər tərəfindən ölkəmizdə ilk hərbi məktəbin yaradılması müstəqillik bərpa edildikdən sonra milli ordumuzun komandan-zabit heyətini formalaşdırmış, 1998-ci ildə dahi şəxsiyyətin Sərəncamı ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının təşkil olunması isə blokada şəraitində yerləşən muxtar respublikanın müdafiə təhlükəsizliyinə töhfə vermişdir.





Ali Məclisin Sədri deyib: Böyük uzaqgörənliklə qəbul olunmuş bu qərarın tarixi əhəmiyyəti zaman keçdikcə öz təsdiqini tapmış, ölkə Prezidentinin Sərəncamı ilə 2004-cü ildə filialın əsasında Heydər Əliyev adına Hərbi Lisey yaradılmışdır. 1998-ci ildə 56 kursantla fəaliyyətə başlayan liseydə bu gün 375 kursant təhsil alır. Builki məzunlar da nəzərə alınmaqla ötən dövrdə hərbi liseyi 3 mindən artıq kursant bitirərək ölkəmizdə və xaricdə ali hərbi məktəblərə qəbul olmuşdur. Hazırda Azərbaycan Respublikasının Silahlı Qüvvələrində liseyin 2 minə yaxın məzunu zabit kimi xidmət edir. Bu, bizi qürurlandırır. Ölkəmizin gələcək zabitlərini hazırlayan Heydər Əliyev adına Hərbi Liseylə fəxr edirik!

Ali Məclisin Sədri kursantlara müraciətlə deyib: Ordu o zaman güclü olur ki, onun peşəkar komandan-zabit heyəti olsun. Azərbaycan dövləti hərbi təhsil müəssisələrinin fəaliyyəti üçün hərtərəfli şərait yaradır, zabit hazırlığına diqqəti artırır. Qalır bu imkanlardan səmərəli istifadə etmək. Hər bir kursant istər hərbi liseydə, istərsə də ali hərbi məktəblərdə təhsil aldığı dövrdə hərb sənətini dərindən öyrənməli, daim öz üzərində işləməli, gələcəyin zabiti kimi yetişməlidir. Zabit olmaq üçün təkcə hərbi təhsil və fiziki hazırlıq kifayət etmir. Zabit adının məsuliyyəti daha böyükdür. Bu peşəni seçən hər bir gənc, ilk növbədə, Vətənini, xalqını, dövlətini sevməlidir. Tarixinə, milli dəyərlərinə, dilinə, adət-ənənələrinə sahib çıxmalı, dünyagörüşünü artırmalı, dövləti və xalqı qarşısındakı xidməti borcunu şərəflə yerinə yetirməlidir.

Qeyd olunub ki, bu gün Azərbaycan Respublikasının Silahlı Qüvvələri müasir maddi-texniki təminata, döyüş texnikalarına və silahlara malikdir. Ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında hərbi qulluqçuların xidməti və yaşayış şəraiti üçün ardıcıl tədbirlər görülür. Yeni hərbi hissələr, xidməti yaşayış kompleksləri istifadəyə verilir. Ona görə də gələcəyin zabiti olacaq gənclər məsuliyyətlərini daha da artırmalı, müasir döyüş texnikalarından və silahlardan istifadə vərdişlərinə mükəmməl yiyələnməli, Ümummilli Liderimizin ideyalarına və Ali Baş Komandanımıza daim sədaqətli olmalıdırlar. Müstəqil Azərbaycanın zabiti adını daşımağın şərəfi də məhz bundan ibarətdir. Ali Məclisin Sədri bir daha buraxılış münasibətilə kursantları təbrik edib, qarşıya qoyulan vəzifələrin icrasında, gələcək təhsildə və xidmətdə onlara uğurlar arzulayıb.

Heydər Əliyev adına Hərbi Liseyin rəisi, polkovnik Məhəmməd Həsənov buraxılış mərasimində iştirakına görə Ali Məclisin Sədrinə liseyin kollektivi adından hörmət və ehtiramlarını bildirərək deyib: Ulu Öndərin əsasını qoyduğu ordu quruculuğu siyasəti bu gün ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında uğurla davam etdirilir. Görülən işlər sırasında ixtisaslı hərbçi kadrların hazırlanması xüsusi yer tutur. Heydər Əliyev adına Hərbi Liseyin yaranması, keçdiyi inkişaf yolu və malik olduğu müasir təlim-tədris bazası bunu bir daha təsdiq edir. Hərbi liseyə qəbul olunmaq üçün müraciət edənlərin sayı ilbəil artır. Liseydə muxtar respublika ilə yanaşı, ölkəmizin digər bölgələrindən olan gənclər də təhsil alırlar. Cari dərs ilində kursantların fiziki və mənəvi-psixoloji hazırlığı diqqətdə saxlanılıb, onlar il ərzində keçirilən beynəlxalq, ölkə və muxtar respublika səviyyəli idman yarışlarında iştirak edərək layiqli yerlər tutublar.

Valideyn Sara Qurbanova çıxış edərək deyib: Bu gün bir valideyn kimi qürur duyuram. Çünki övladım Heydər Əliyev adına Hərbi Liseyi bitirərək ali hərbi məktəbə qəbul olub. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, "Cəmiyyətdə hər bir peşə lazımdır, hörmətlidir, cəmiyyət üçün faydalıdır. Ancaq Vətəni qorumaq peşəsi bu peşələrin hamısından yüksəkdir. Özünü bu peşəyə həsr edən hər bir Azərbaycan gənci bütün gənclərdən qiymətlidir". Bu gün Heydər Əliyev adına Hərbi Liseydə yüzlərlə gənc təhsil alır, milli və hərbi vətənpərvərlik ruhunda tərbiyə olunurlar. Xoşbəxtəm ki, mənim övladım da bu şərəfli peşəni seçib. Valideyn olaraq kursantlara arzum budur ki, gələcəkdə Vətənin keşiyində mərdliklə dayansınlar. İstər ali hərbi məktəblərdə təhsil aldıqları, istərsə də Silahlı Qüvvələrdə xidmət etdikləri dövrdə göstərilən etimadı şərəfli xidmətlə doğrultsunlar. Heydər Əliyev adına Hərbi Lisey Ali Məclis Sədrinin təşəbbüsü ilə yaranıb, diqqət və qayğısı ilə əhatə olunub, inkişaf edərək mətinlik məktəbinə çevrilib. Liseydə övladlarımızın təhsili, yaşayışı və vətənpərvər ruhda böyüdülməsi üçün hərtərəfli şərait var. Göstərilən qayğı bütün valideynlər tərəfindən razılıq və minnətdarlıqla qarşılanır.

Heydər Əliyev adına Hərbi Liseyin məzun kursantı Kərim Ələkbərov çıxış edərək deyib: "Bu gün biz kursantların həyatında olduqca əlamətdardır. Çünki ümummilli liderimiz Heydər Əliyevin adını daşıyan Hərbi Liseyi bitirib Ali Hərbi Məktəbə qəbul olmuşuq. Heydər Əliyev adına Hərbi Liseydə aldığımız yüksək təhsil zabit arzumuzu reallaşdırdı. Biz Azərbaycan Ordusunun gələcək zabitləriyik. Gələcəkdə doğma Azərbaycanımızın hansı guşəsində xidmət etməyimizdən asılı olmayaraq məzunu olduğumuz Heydər Əliyev adına Hərbi Liseyin adını yüksək tutacaq, göstərilən etimadı doğruldacaq, Ali Baş Komandanımızın əmrinə hər an hazır olacağıq". Məzun olan və təhsil alan kursantlar adından Ali Məclisin Sədrinə minnətdarlığını bildirən Kərim Ələkbərov söz verib ki, qarşıdakı təhsil illərində göstərilən yüksək etimadı doğruldacaqlar.

Sonra Ali Məclisin Sədri liseyin əlaçı kursantlarına attestatları təqdim edib, zabit, müəllim və kursantları mükafatlandırıb. Kursant Ədib Əliyev təhsil ocağının rəmzi kötüyünə xatirə birkasını vurub.

Orkestrin müşayiəti ilə "Hərbi lisey marşı" ifa edilib, şəxsi heyət təntənəli marşın sədaları altında nizami addımlarla tribunanın önündən keçib. Ali Məclisin Sədri ümummilli liderimiz Heydər Əliyevin hərbi liseydəki büstü önündə kursantlarla xatirə şəkli çəkdirib.

## "Sosial paketin imzalanması iqtisadi inkişafın məntiqi davamıdır"



"Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin minimum aylıq əməkhaqqının artırılması ilə bağlı verdiyi növbəti Sərəncam ilk növbədə Azərbaycan xalqının rifahı və gələcəyi üçün həyata keçirilən sosial siyasətin məntiqi davamıdır. Bu fikirləri SİA-ya "Səs" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev dövlət başçısının minimum əmək haqqlarının artırılması haqqında imzaladığı Sərəncama münasibətini bildirərkən deyib. Baş redaktor bildirib ki, ölkə ictimaiyyəti bu addımı böyük ruh yüksəkliyi ilə qarşılayır və bu kimi addımlar ölkənin sosial inkişaf proseslərində xalqın rifah naminə atılan addım kimi qiymətləndirir: "Ümumiyyətlə, sosial problemlərin həlli, vətəndaşların rifah halının yüksəldilməsi ilə bağlı atılan addımlar bilavasitə Azərbaycanın nəinki regionda, o cümlədən, beynəlxalq aləmdə insan amilinə verdiyi dəyərin sübutudur".

B.Quliyevin sözlərinə görə, bu kimi qərarlar aparılan siyasətin mərkəzində insan amilinin dayanmasının göstəricidir: "Biz əminik ki, hər bir Azərbaycan vətəndaşı davamlı olaraq bu qərarların bəhrəsini görür. Ölkənin iqtisadi inkişafı, ümumilikdə, Azərbaycan ailəsinin sosial durumunun yaxşılaşmasına xidmət edir".

Ekspert onu da qeyd edib ki, görülən işlər sabitliyin, Lider-xalq birliyinin nəticəsidir: "Ölkə başçısı tərəfindən aparılan sosial-iqtisadi siyasətin qayəsində Azərbaycan vətəndaşının, onun sosial təminatının və rifahının dayandığını özündə növbəti dəfə bariz şəkildə ehtiva edən bu qərarlar ümumilikdə 2,0 milyondan çox insanı əhatə etməklə, həm dövlət orqanlarında, həm də özəl sektorda çalışan şəxslərin maddi vəziyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdıracaqdır".

## Serbiya Prezidenti Azərbaycan alimlərinin nümayəndə heyətini qəbul edib





İyunun 18-də Serbiya Prezidenti Aleksandr Vuçiç Azərbaycan Dillər Universitetinin (ADU) rektoru, akademik Kamal Abdullayevin başçılıq etdiyi Azərbaycan alimlərinin nümayəndə heyətini qəbul edib. Görüşdə iki ölkənin ali məktəbləri və elmi müəssisələri arasında əlaqələrin genişləndirilməsi məsələlərinə toxunulub.

Serbiya dövlətinin başçısı ötən ilin mayında açılışında iştirak etdiyi ADU nəzdində Serb Dili və Mədəniyyəti Mərkəzinin səmərəli fəaliyyətindən məmnunluğunu ifadə edib. O, serb alimlərinin 20-dən çox əsərinin Azərbaycan dilinə tərcüməsinə və nəşrinə görə Azərbaycanın elmi mərkəzlərinə və nəşriyyatlarına təşəkkür edərək deyib: "Xalqlarımızı məhz belə səylər və əməkdaşlığın real nəticələri birləşdirir".

Xatırladaq ki, həmin vaxt A.Vuçiçə ADU-nun fəxri doktoru adı verilib.

Akademik Kamal Abdullayev bildirib ki, hazırda 30-dan çox azərbaycanlı tələbə mərkəzdə serb dilini öyrənir və serb mədəniyyəti sahəsində elmi araşdırmalar aparır. O, həmçinin Belqrad Universiteti nəzdində Azərbaycan Dili və Mədəniyyəti Mərkəzinin fəaliyyətindən razı qaldığını bildirib. Alim Serbiya dövlətinin başçısını beşillik fəaliyyət planının işlənib hazırlanması üçün hər tərəfdən 5 ekspertin iştirakı ilə komissiyanın yaradılması barədə iki mərkəz arasında əldə olunmuş razılaşma, habelə iki universitet arasında aspirant və doktorant mübadiləsi proqramının işə salınması barədə məlumatlandırıb.

Prezident A.Vuçiç söhbət əsnasında regionun xəritəsində Azərbaycanın son dərəcə əlverişli geosiyasi mövqedə yerləşdiyini qeyd edib. O, Azərbaycanın ərazi bütövlüyünə dəstəyini ifadə edib və onun beynəlxalq hüquq normaları çərçivəsində tezliklə bərpa olunmasını arzu edib. O, azərbaycanlı həmkarı, Prezident İlham Əliyev haqqında xoş sözlər söyləyərək, onun dünya arenasında öz xalqının maraqlarını güdən siyasi lider kimi çox xarizmatik şəxsiyyət olduğunu vurğulayıb.

Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimli, Milli Məclisin deputatı Cavanşir Feyziyev və Azərbaycanın Serbiya, Monteneqro, Bosniya və Herseqovinadakı səfiri Eldar Həsənov Azərbaycan nümayəndə heyətinin tərkibində görüşdə iştirak ediblər.

## Ankarada Azərbaycan diplomatik xidmət orqanlarının 100 illiyi münasibətilə konfrans keçirilib



Azərbaycanın Türkiyədəki səfirliyində ölkəmizin diplomatik xidmət orqanlarının 100 illik yubileyi münasibətilə konfrans keçirilib. AZƏRTAC xəbər verir ki, konfransda Ankarada akkreditə olunan diplomatik korpusun rəhbərləri və təmsilçiləri, Azərbaycan və Türkiyənin tanınmış alimləri, qardaş ölkənin paytaxtında təhsil alan tələbələr iştirak ediblər.



Konfransı giriş sözü ilə açan Azərbaycanın Türkiyədəki səfiri Xəzər İbrahim 100 il əvvəl təsis olunan Azərbaycanın diplomatik orqanlarının ötən dövrdəki fəaliyyəti və müasir inkişaf istiqamətləri, konfransın məqsəd və mahiyyəti barədə məlumat verib.

Sonra Azərbaycan Respublikası Prezidenti Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin məruzəsi dinlənilib. Azərbaycanın dövlətçilik tarixi, ənənələri, coğrafi mövqeyi, diplomatik orqanlarının yaranması və hazırkı vəziyyəti, o cümlədən Prezident İlham Əliyevin rəhbərliyi ilə müxtəlif sahələrdə aparılan köklü islahatlar, ölkəmizin sosial-iqtisadi inkişaf modeli və regionun nəqliyyat qovşağına çevrilməsi, iqtisadiyyatın şaxələndirilməsi və sair mühüm məqamlar barədə geniş məlumat verən şöbə müdiri Hikmət Hacıyev Azərbaycan xarici siyasətinin əsasları, onun strateji mövqeyi, region dövlətləri ilə münasibətləri, həyata keçirdiyi və regionun siyasi-iqtisadi xəritəsini dəyişən enerji və nəqliyyat layihələri barədə danışıb.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin real vəziyyətini təhlil edən Prezident Administrasiyasının rəsmisi Azərbaycan rəhbərliyinin həyata keçirdiyi sülh danışıqları prosesinin təcavüzkar Ermənistan hakimiyyətinin qeyri-konstruktiv mövqeyi səbəbindən nəticə vermədiyini diqqətə çatdıraraq bildirib ki, işğalçı tərəf davamlı olaraq təmas xəttində Azərbaycanın hərbi qulluqçularının və mülki vətəndaşlarının həlak olması ilə nəticələnən təxribatlar törətməkdədir. Məruzəçi işğalçı tərəfin hazırda regiondakı bütün iqtisadi layihələrdən təcrid olunduğunu vurğulayaraq əminliklə bildirib ki, əgər təcavüzkar ölkə öz işğalçılıq siyasətindən əl çəksə bu, ilk növbədə, Ermənistan üçün faydalar gətirər. Sonda Prezident Administrasiyasının şöbə müdiri iştirakçıları maraqlandıran sualları cavablandırıb.

## XİN: Ermənistan rəhbərliyinin məntiqini anlamaq çətindir



Ermənistan Müdafiə Nazirliyi Dağlıq Qarabağda 10 min silahlı qüvvənin iştirakı ilə hərbi təlimlər keçirdiyini bəyan edib. AZƏRTAC xəbər verir ki, Azərbaycanın Xarici İşlər Nazirliyi bu məsələyə münasibət bildirib. Nazirliyin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayevanın açıqlamasında deyilir: "Ermənistanda müharibə tərəfdarlarının qələbə çaldığına inanmaq istəməzdim. Çünki bu dalana aparan bir yoldur. Xüsusilə də ATƏT-in Minsk qrupunun həmsədrlərinin təklifi əsasında iki ölkənin xarici işlər nazirlərinin Vaşinqtonda keçiriləcək görüşü ərəfəsində Ermənistan tərəfinin bu addımları anlaşılmazdır. Həqiqətən, Ermənistan rəhbərliyinin məntiqini anlamaq çətindir. Bir tərəfdən müdafiə naziri Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ ərazisində 10 min hərbi qulluqçunun iştirakı ilə hərbi təlimlərin keçiriləcəyini bəyan edir, digər tərəfdən isə bu ölkənin xarici işlər naziri Vaşinqtonda münaqişənin sülh yolu ilə həlli üzrə danışıqlar aparmağa hazırlaşır. Belə olan halda Ermənistan rəhbərliyi öz hərəkətlərinin məntiqi izahını verə biləcəkmi? İstər-istəməz Rusiya, ABŞ və Fransadan olan həmsədrlərə "bundan sonra nə?" sualı ilə müraciət etməli oluruq".

## Dörd ayda Azərbaycanın xarici ticarət dövriyyəsi 10,9 milyard dollar olub

Cari ilin yanvar-aprel aylarında Azərbaycanın xarici ticarət dövriyyəsi 10,9 milyard ABŞ dolları təşkil edib. Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla yanvar-aprel aylarında ölkənin xarici ticarət dövriyyəsi 10 milyard 965,2 milyon dollar, o cümlədən ixracın dəyəri 6 milyard 415,8 milyon dollar, idxalın dəyəri 4 milyard 549,4 milyon dollar təşkil edib, nəticədə 1 milyard 866,4 milyon dollarlıq müsbət ticarət saldosu yaranıb.

Ötən ilin eyni ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 17,7 faiz, o



cümlədən idxal 50,3 faiz, ixrac 1,9 faiz artıb. Real ifadədə isə dövriyyə 7,3 faiz, o cümlədən idxal 19,5 faiz, ixrac 1,4 faiz çoxalıb.

İxracın 29,8 faizini İtaliyaya, 10,7 faizini Türkiyəyə, 7,8 faizini Çinə, 6,3 faizini İsrailə, 5,3 faizini Almaniyaya, 5,1 faizini İspaniyaya, 4,7 faizini Hindistana, 3,6 faizini Fransaya, 3,3 faizini Çexiyaya, 3,1 faizini Gürcüstana, 3 faizini Portuqaliyaya, 2,5 faizini Rusiyaya, 14,8 faizini isə digər ölkələrə göndərilmiş məhsulların dəyəri təşkil edib. Ölkəmizə idxal olunmuş məhsulların ümumi dəyərinin 16,2 faizi İsveçrə, 14,5 faizi Rusiya, 9,7 faizi Türkiyə, 8,3 faizi Çin, 5,3 faizi İran, 4,6 faizi Almaniya, 4,2 faizi ABŞ, 3,1 faizi Ukrayna, hər biri 2,8 faiz olmaqla İtaliya və Kanada, 2,7 faizi Avstraliya, 2,3 faizi Qazaxıstan, 23,5 faizi isə digər ölkələr ilə aparılmış idxal əməliyyatlarının payına düşüb.

# Zakir Həsənov: Prezident İlham Əliyev rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrində əsaslı islahatlar aparılır

## *Azərbaycan Ordusu qarşıya qoyulan bütün tapşırıqları yerinə yetirməyə qadirdir*

***İyunun 18-də Azərbaycanın Müdafiə naziri, general-polkovnik Zakir Həsənov mətbuat nümayəndələri ilə görüşüb və onları maraqlandıran sualları cavablandırıb.***

AZƏRTAC xəbər verir ki, nazir görüşün Azərbaycan Ordusunun ildönümü ərəfəsində keçirildiyini və ənənə halını aldığını deyib.

Zakir Həsənov qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə orduda həyata keçirilən islahatlar uğurla davam edir. 2013-cü ildən başlayaraq isə Azərbaycan Silahlı Qüvvələrində Prezident İlham Əliyev rəhbərliyi ilə əsaslı islahatlar həyata keçirilir. Ordumuz bütün əsas istiqamətlərdə inkişaf edir və bununla bağlı sübutlar var. Bunu beynəlxalq qurumlar da yüksək qiymətləndirir. Bizim üçün əsas odur ki, xalqımız, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev buna yüksək qiymət verir. İslahatların əsas istiqamətləri ordunun yeni müasir silah, texnika, avadanlıqla təmin etmək, infrastrukturu yeniləmək, döyüş qabiliyyətini artırmaq, sosial bazanı gücləndirməkdir.

Ötən illər ərzində Azərbaycan Ordusuna müasir silahların alındığını və bununla bağlı ictimaiyyətin daim məlumatlandırıldığını vurğulayan nazir deyib: “2018-ci ildə Silahlı Qüvvələrin 100 illiyi ilə əlaqədar keçirilən möhtəşəm paradda nümayiş olunan silah və texnikanın 90 faizi yeni və müasir idi. Təbii ki, paradda bütün silahlar nümayiş olunmadı.

Ali Baş Komandanın tələbi ilə həyata keçirilən islahatlar nəticəsində bizim hərbi şəhərciklər müasir səviyyədə qurulub. Bu gün Azərbaycan Ordusunun hərbi şəhərciklərinin 85 faizi yenidən qurulub, tikilib. 2018-ci ildə beş yeni böyük, müasir hərbi şəhərcik istifadəyə verilib. Bu il isə 9 hərbi şəhərciyin istifadəyə verilməsi nəzərdə tutulur. Yaxın günlərdə 3 böyük hərbi şəhərciyin açılışı olacaq. Siz görəcəksiniz ki, Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunda nə qədər böyük işlər həyata keçirilib”.

Ordunun döyüş qabiliyyətinin artırılması istiqamətində də genişmiqyaslı işlərin görüldüyünü deyən Z.Həsənov bildirib: “Bilirsiniz ki, döyüş hazırlığının əsas hissəsi şəxsi heyətin, hissə və birləşmələrin səhra bacarığının artırılmasıdır. Biz tez-tez irimiqyaslı təlimlər keçiririk, müasir təlim mərkəzləri qurmuşuq. Təlimlər döyüş vəziyyətinə maksimum yaxın şəraitdə, gecə və gündüz, ilin bütün fəsillərində keçirilir. Biz gündən-günə daha böyük hissə və birləşmələri bu təlimlərə cəlb edirik.



Bir neçə il əvvəl Azərbaycan Ordusu işğal altındakı ərazilərimizdə yerləşən düşmən ordusunun birləşmələrinə böyük zərbə vurdu. 2016-cı ildəki əməliyyatların əsas nəticəsi o oldu ki, Azərbaycan Ordusunun kiçik bir hissəsi 3-4 gün ərzində Ermənistan ordusunu darmadağın etdi. Nəticədə ermənilər məcbur olub atəşkəs üçün müraciət etdilər”.

Müdafiə nazirinin sözlərinə görə, Ordumuzda islahatların əsas istiqamətləri yekunlaşır. Azərbaycan ordusunu yeni silahlarla tam şəkildə təmin edib. 2019-cu ildə əsas istiqamətlərdən biri ordunun idarə olunmasının təkmilləşdirilməsidir. Burada əsas vəzifə bütün hissə və birləşmələrin fasiləsiz, məxfi, operativ şəkildə idarə olunmasıdır. İndi bütün dünyada bu məsələyə çox ciddi fikir verilir. Ən müasir texnika bu işlərə cəlb edilir, müasir komanda-idarəetmə sistemi qurulur. Biz artıq hərbi hissələrimizi onlayn qaydada idarə edirik. Biz tabora qədər onlayn idarəetmə tətbiqinə nail olmuşuq. Ali Baş Komandan bu məsələlərə çox ciddi fikir verir və biz tezliklə bu məsələni də həll edəcəyik. Azərbaycan Ordusu aparıcı dövlətlərin təcrübəsindən və texnikalarından istifadə edərək bu məsələnin böyük dərəcədə təmin edib. Kibertəhlükəsizlik və radioelektron mübarizə sahəsi də daim diqqətdə saxlanılır. Aparıcı dövlətlərin təcrübəsindən və texnikalarından istifadə olunaraq bu məsələ də həllini tapıb.

Nazir xüsusi qeyd edib ki, Azərbaycan Ordusunun döyüş qabiliyyətinin, hazırlığının, təcrübəsinin artırılmasında Türkiyə Silahlı Qüvvələrinin rolu böyükdür. Türkiyə Silahlı Qüvvələri dünyanın aparıcı ordularından biridir. Qardaş ölkənin ordusu yüksək döyüş qabiliyyətinə malikdir. Biz Türkiyə ordusunun təcrübəsindən bəhrələnirik və 2013-cü ildən başlayaraq birgə təlimlərə başlamışıq. Hər il bu təlimlərin sayını artırırıq. Əgər 2018-ci ildə planda 7 təlim var idisə, 2019-cu ildə bu təlimlərin sayını 13-ə çatdırmışıq. Təlimlər bütün qoşun növlərini əhatə edir. Hər iki ölkənin mütəxəssisləri birgə təlimlər keçir, qərəgahların fəaliyyəti uzlaşır, komandirlər birgə qarşılıqlı əlaqədə müasir döyüşün təşkilini öyrənir. Gələcək fəaliyyətimizdə bunlardan istifadə edəcəyik.

General-polkovnik Zakir Həsənov qeyd edib ki, Azərbaycan Hərbi Hava Qüvvələrinin (HHQ) texnika parkının yenilənməsi istiqamətində də işlər aparılır. HHQ-nin təyyarə və helikopterləri modernləşdirilib, uzaq mənzilə və yüksək dəqiqliyə malik silahlarla təchiz olunub. Azərbaycan Ordusu helikopter parkını da tam yeniləyib. Bizim istifadəmizdə ən müasir Mi-35M, Mi-24, Mi-17 helikopterləri mövcuddur. Bu helikopterlər dünyanın aparıcı dövlətləri tərəfindən təkmilləşdirilib və yeni silahlarla təchiz olunub. Onlar indi uzaq məsafədən hədəfi dəqiqliklə vura bilir.

Ermənistanın Rusiya ilə Su-30SM təyyarələrinin alınmasına dair imzaladığı müqaviləyə münasibət bildirən Zakir Həsənov qeyd edib ki, ekspertlər bu təyyarələri müsbət qiymətləndirmirlər. Bu təyyarələr bizim müharibə teatrımıza uyğun deyil.

Müdafiə naziri qeyd edib ki, Azərbaycan Hərbi Dəniz Qüvvələrinin gücləndirilməsi istiqamətində işlər gedir, danışıqlar aparılır, texniki məsələlər həll olunur. Bu istiqamətdə bir neçə layihə var. Bu yaxınlarda layihələrə başlanması ilə bağlı məlumat veriləcək. Biz Xəzər dənizinin Azərbaycana aid hissəsinə gecə-gündüz, fasiləsiz tam nəzarət edirik. Xəzər dənizində dost ölkələrlə sərhədik və heç bir təhlükə görmürük.

Nazir gəncləri sosial şəbəkələrdə diqqətli olmağa, təxribatlara uymamağa çağıraraq deyib: “Vətən, millət, dövlətçilik məsələlərində bütün şəxsi mövqelər kənarda durmalıdır. Biz hamımız bir olmalıyıq. Bəzən sosial şəbəkələrdə Azərbaycan adı altında əsassız məlumatlar paylaşılır. Ermənilərin məqsədi dövlətçiliyimizə və ordumuza qarşı saxta məlumatlar yaymaqdır. Sosial şəbəkələrdə belə məlumatları yayanların 90 faizi ermənilər, digərləri isə öz şəxsi mövqelərindən çıxış edən cılız insanlardır. Vətən, millət, dövlət məsələsində bütün maraqlar kənara qoyulmalıdır. Biz hamımız bir olmalıyıq”.

Ermənistanın müdafiə naziri David Tonoyanın hərbi qulluqçumuz, əsgər Elşən Xəlilovun vurulmasına şəxsən əmr verməsi ilə bağlı dediyi fikrə münasibət bildirən Zakir Həsənov vurğulayıb: “Deyə bilərəm ki, Ermənistanın müdafiə naziri David Tonoyan yalan danışır. O özünü reklam edir. Son hadisələr zamanı biz ermənilərə layiqli cavab vermişik. Bir müddət sonra onlar öz itkilərini bir-bir üzə çıxaracaqlar. Xalqımız Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusundan qələbələr gözləyir. 2016-cı ildə üç gün ərzində Azərbaycan Ordusunun kiçik bir hissəsi bütün Ermənistan ordusunu darmadağın etdi. Azərbaycan Ordusu bu qələbəni hər dəqiqə nümayiş etdirməyə hazırdır”.

Mayın 30-da səhər saatlarında cəbhənin Ağdam rayonu istiqamətində düşmən tərəfindən açılan snayper atəşindən Azərbaycan Ordusunun hərbi qulluqçusu, mayor Omarov Aqil Akif oğlunun şəhid olmasına münasibət bildirən nazir qeyd edib: “Hər bir şəhidimiz bizim üçün əzizdir. Əsgər, zabit, nazir daxil olmaqla biz hamımız Vətən, millət naminə cəbhədə öz həyatımızı təhlükə qarşısında qoyuruq və bununla qürur duyuruq. Bu günlərdə Azərbaycanın hərbi qulluqçusu, mayor şəhid oldu. Bəziləri deyir ki, mayor orada nə edib?! Şəhid mayor orada mənim əmrimi yerinə yetirirdi. Ərazidə döyüş hazırlığı ilə məşğul olurdu. Ön xətdə olan şəxsi heyətimiz gecə-gündüz döyüş hazırlığı ilə məşğuldur. Onlar taktiki, atəş, ideoloji hazırlıq, istehkam hazırlığı ilə məşğul olurlar. Həmin vaxt tabor komandiri orada döyüş hazırlığı ilə məşğul olub”.

Azərbaycan sərhədçilərinin Ermənistanla dövlət sərhədində vəzifələrinin öhdəsindən bacarıqla gəldiklərini vurğulayan nazir bildirib: “Ötən əsrin 90-cı illərindən Ermənistanla sərhədi Azərbaycan Ordusu mühafizə edirdi. Azərbaycanın Sərhəd Qoşunları inkişaf edir, yeni silahlarla təchiz edilir, döyüş hazırlığı ilə məşğul olur. Ali Baş Komandan Ermənistanla sərhədin kiçik bir hissəsinin mühafizəsinin Sərhəd Qoşunlarına təhvil verilməsi barədə göstəriş verdi ki, gələcəkdə bu sahə sərhədçilərə həvalə olunsun. Bu gün sərhədçilər öz işlərinin öhdəsindən bacarıqla gəlirlər. Gələcəkdə Ermənistanla dövlət sərhədinin digər hissələrinin də mühafizəsinin Sərhəd Qoşunlarına verilməsi barədə Ali Baş Komandanın qərarı olarsa, bu, ordumuzun ehtiyatını daha da artırar. Ermənilər də bunu başa düşürlər”.

Azərbaycan Ordusunun şəxsi heyətinin 80 faizinin peşəkar hərbçilərdən ibarət olduğunu vurğulayan nazir deyib: “Bu gün Orduda döyüş qabiliyyətini müəyyən edən vəzifələrdə peşəkar hərbçilər xidmət edirlər. Tankların, zirehli döyüş maşınlarının, artilleriya vasitələrinin, gəmilərin, hava hücumundan müdafiə texnikalarının heyətləri, sürücülər orduda müqavilə əsasında xidmət edirlər. Artıq onlar öz sahələrində kifayət qədər peşəkardırlar. Müddətli hərbi xidmət keçən əsgərlər isə yalnız atıcı vəzifələrində xidmət edirlər”.

Müdafiə naziri xüsusi vurğulayıb ki, Azərbaycan Ordusu qarşıya qoyulan bütün tapşırıqları yerinə yetirməyə qadirdir. Keçirilən təlimlər də məhz buna hesablanıb.

# Müdafiə naziri yeni təlim mərkəzinin açılışında iştirak edib

***İyunun 18-də Azərbaycan Respublikasının Müdafiə naziri, general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti yeni inşa olunan təlim mərkəzinin açılışında iştirak edib.***

AZƏRTAC xəbər verir ki, mərkəz haqqında tədbir iştirakçılarına ətraflı məlumat verilib. Bildirilib ki, burada təlimlərə cəlb olunacaq şəxsi heyətin yerləşdirilməsi və fəaliyyəti üçün lazımi infrastruktur yaradılıb. Real döyüş şəraitinə uyğun inşa edilən təlim mərkəzində atış çalışmaları, müxtəlif döyüş və xüsusi texnikanın mürəkkəb relyef və hava şəraitində idarə olunması üzrə praktiki vərdişlərin təkmilləşdirilməsi məqsədilə məşğələlərin keçirilməsi, döyüş tapşırıqlarını tədris və praktiki məşq etdirilməsi nəzərdə tutulub. Müdafiə naziri poliqonun ərazisindəki hərbi infrastruktur obyektlərinə baş çəkib, müxtəlif bölmələr ilə keçirilən səhra məşğələlərini izləyib.





# Fransa məhkəmələrinin qərarları yalnız erməniləri pəjmürdə etmir

*Məyus olanlar içində adlarını "müxalifətçi" qoyub, radikalizm, qeyri-sabitlik, xəyanət, milli və dövlətçilik maraqlarını satmaq kimi əməlləri ilə "ad çıxarmış" saxta liderlər və xaricdəki söyüş müxalifəti də var*

***Fransanın son zamanlar Ermənistanın işğalçılıq siyasətinə qarşı, xüsusilə, qondarma "DQR"in separatçı rejimini məyus edən qərarlar verməsi bir sıra məqamları üzə çıxarır. Daha dəqiq desək, fransızların Serji-Pontuaz Məhkəməsinin Arnuvilin qondarma Dağlıq Qarabağdakı şəhər inzibati bölgəsi ilə "Dostluq haqqında xartiya"sını ləğv etməsinin ardınca, Qrenobl İnzibati Məhkəməsi tərəfindən də bənzər qərarın çıxarılması separatçı rejimin beynəlxalq miqyasda tanıdılması cəhdlərinin iflasa uğradığını göstərməsi ilə yanaşı, həm də Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinə qarşı atılan addım olaraq göstərilə bilər.***



Yəni bu kimi qərarlar beynəlxalq ictimaiyyətin separatçılıq meyillərini qınamasının növbəti açıq təzahürüdür. Əgər yaxınlarda separatçılığa məruz qalmış digər bir sıra ölkələrlə bağlı bənzər məhkəmə qərarları çıxarılarsa, Fransanın mövcud qərarları bütün bunlara təkanverici rolunu təqdim edir.

### Xüsusilə, erməni lobbisinin köklü mənbəyi sayılan ölkədə ləğv qərarlarının verilməsi həmin lobbinin zəifləməsinin göstəricisi, Azərbaycanın xarici diplomatiyasının uğuru kimi də qiymətləndirilə bilər

Sözügedən xartiyalar Fransanın xarici siyasət kursuna və beynəlxalq öhdəliklərinə də zidd idi və ATƏT-in Minsk Qrupunun həmsədrlərindən biri kimi, bu ölkənin bitərəfliyini şübhə altına alırdı. Yəni bu amil iki standartları və ədalətsizliyi daha çox qabardırdı. Xüsusilə, erməni lobbisinin köklü mənbəyi sayılan bu ölkədə ləğv qərarlarının verilməsi, həmin lobbinin zəifləməsinin göstəricisi kimi də, qiymətləndirilə bilər. Bildiyimiz kimi, bir çox millətçi erməni lobbilərinin dayaq mərkəzi Fransa olub. Hətta Dağlıq Qarabağ münaqişəsinin təməli də Fransadakı erməni lobbisinin "təklifi" ilə qoyulub, bu barədə fransız KİV-lərində ilk məqalələr çıxıb. Ümumiyyətlə, erməni işğalçılıq siyasətinin, separatçılıq toxumlarının Avropadakı beşiyinin Fransa olması kimsəyə sirr deyil. Bütün bunların qarşısını almaq üçün ciddi səylərə və ardıcıl işlər aparmağa ehtiyac var idi. Ona görə də, burada daha bir faktor Azərbaycan hakimiyyətinin yürütdüyü uğurlu xarici diplomatiyasıdır ki, məhz həmin diplomatik səylər, aparılan ardıcıl işlər sayəsində, Fransa məhkəmələri ədalətli qərarların verilməsində ədalətin yanında dayandılar.

### Milli mənafelərdən dəm vurub, gündə sosial şəbəkələrdə canlı yayımlara çıxan şəxslərin belə məsələlərdə susqunluq nümayiş etdirmələri onlarda heç bir milli təəssübkeşliyin olmadığını göstərməklə yanaşı, başqa bir reallığı da üzə çıxarır - erməni lobbisini itirmək qorxusunu

Təəssüf ki, Azərbaycan iqtidarının, ölkə rəhbərliyinin ümummilli maraqlara söykənən qətiyyətli addımları və əldə edilən uğurlara məyus olanlar, sadəcə, ermənilər deyil. Məyus olanlar içində adlarını "müxalifətçi" qoyub, radikalizm, qeyri-sabitlik, xəyanət, milli və dövlətçilik maraqlarını satmaq kimi əməlləri ilə "ad çıxarmış" saxta liderlər və xaricdəki söyüş müxalifəti də var. Yalnız şəxsi mənfəətlərini güdərək, siyasi gödənlərini genəldən saxta liderlər nədənsə sözügedən qərarlarla bağlı, hətta bir kəlmə də olsa, fikir bildirmir, əksinə, bu uğurlara kölgə salmaqdan ötrü hər vəchlə milli xəyanətkarlıq addımlarını davam etdirirlər. Əslində, burada təəccüblü heç nə yoxdur. Daha doğrusu, aydın görünür ki Azərbaycanın milli maraqlarının qorunması, nəinki saxtakar müxalifət liderlərinin, habelə, onların xaricdəki söyüş müxalifətinin proqramına da daxil deyil. Onlar Azərbaycan dövlətini, hakimiyyət nümayəndələrini təhqir edir, lakin bu kimi ümummilli məsələlərdə susurlar. Söz yox ki, bu susqunluqların da səbəbləri var. Məsələn, xaricdə yaşayan və milli mənafelərdən dəm vurub, gündə sosial şəbəkələrdə canlı yayımlara çıxan şəxslərin belə məsələlərdə susqunluq nümayiş etdirmələri, onlarda heç bir milli təəssübkeşliyin olmadığını göstərməklə yanaşı, başqa bir reallığı da üzə çıxarır - erməni lobbisini itirmək qorxusunu. Çünki dəfələrlə bir çox faktlar, sübutlar, dəlillər və yazılı isbatlamalardan da aydın görünüb ki, bu gün "millət", "xalq" deyə bağıranların maliyyə donorlarının arxasında mütləq şəkildə erməni lobbisinə bağlı olan fərdlər və təşkilatlar dayanır. Bu fərdlər və təşkilatlar söz yox ki, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinə dəstək göstərir, həmin dəstəklər içində Azərbaycandan olan xainlərdən və satqınlardan maksimum qaydada istifadə edilir. Sirr deyil ki, bir çox məsələlərdə Ermənistan KİV-lərində, məhz Azərbaycanda fəaliyyət göstərən radikal müxalifət partiya "liderlərinin", o cümlədən, xaricdəki "qrantoyedlərin" fikirləri yer alır. Bu isə, bir daha aydın olaraq göstərir ki, onlara pulu, məhz Azərbaycanı gözdən salmaq üçün ayırırlar və erməni mətbuatı bu vasitələrdən kifayət qədər istifadə edir. Belə olan halda, Fransa məhkəmələrinin ermənilərin maraqlarına cavab verməyən qərarlar çıxarmaları ermənilərlə yanaşı, milli xəyanətkar ünsürləri də pəjmürdə edir.

Qarşıda isə, gücü Azərbaycan diplomatiyası qarşısında onları daha ağır məğlubiyyətlər və məyusluqlar gözləyir. Necə deyərlər, buna bir balaca da şübhələri olmasın...

*Rövşən RƏSULOV*

# Dövlət Sərhəd Xidməti İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə silsilə tədbirləri davam etdirir



Dahi Azərbaycan şair və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə silsilə tədbirlər Dövlət Sərhəd Xidmətində (DSX) böyük təntənə ilə davam etdirilir. DSX-nin mətbuat mərkəzində AZƏRTAC-a bildiriblər ki, hərbi hissə və bölmələrdə keçirilən seminarlarda, ədəbi-bədii gecələrdə elm və incəsənət xadimləri, yerli icra hakimiyyəti orqanlarının və ictimaiyyətin çoxsaylı nümayəndələri iştirak edirlər.

Silsilə tədbirlər çərçivəsində iyunun 17-də Dövlət Sərhəd Xidmətində Azərbaycan Respublikasının Əməkdar elm xadimi, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) müxbir üzvü, filologiya elmləri doktoru, professor Qəzənfər Paşayevin, Neft-Kimya Prosesləri İnstitutunun direktoru, akademik Vaqif Abbasovun, AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun şöbə müdiri, fəlsəfə elmləri doktoru, professor Almaz Ülvi Binnətovanın və Azərbaycan Respublikasının Xalq artisti, dövlət mükafatı laureatı Şeyx Əbdül Mahmudbəyovun iştirakı ilə keçirilən tədbirdə Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə bəxş etdiyi qüdrətli söz ustası, Şərqin zəngin mədəni-mənəvi sərvətləri üzərində ucalan, bədii söz sənətinin son dərəcə qiymətli incilərini meydana gətirən, dərin poetik fikirləri ilə dövrün elmi-fəlsəfi düşüncələrinin ifadəçisinə çevrilən, adı mərdlik, fədakarlıq və iradə rəmzi kimi çəkilən dahi İmadəddin Nəsiminin həyat və yaradıcılığından ətraflı məlumat verilib.

Çıxışlarda Nəsimi irsinin Azərbaycan xalqının mənəviyyat xəzinəsində layiqli yerini tutması ötən əsrin 70-ci illərində geniş fəaliyyəti sayəsində tarixi-mədəni dəyərlərimizə münasibətdə əsaslı dönüş yaratmış ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olması və məhz Dahi Öndərin təşəbbüsü ilə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən ilk dəfə Nəsiminin 600 illik yubileyinin UNESKO-nun tədbirləri siyahısına daxil edilməsi və 1973-cü ildə beynəlxalq miqyasda qeyd edilməsi xüsusi vurğulanıb.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın qayğısı ilə 2017-ci ildə Parisdə Nəsiminin anadan olmasının ildönümünün qeyd edilməsi, ötən il Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə ölkəmizdə Nəsimi poeziya festivalının keçirilməsi və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı Sərəncama əsasən, 2019-cu ilin ölkəmizdə "Nəsimi ili" elan olunması bir daha ölməz şairin yaradıcılığına, onun irsinə töhfə olmaqla yanaşı, bütövlükdə Azərbaycan ədəbiyyatına, mədəniyyətinə və milli-mənəvi dəyərlərimizə dövlətimiz tərəfindən göstərilən ehtiramın ifadəsi olduğu böyük minnətdarlıqla bildirilib. Tədbirin sonunda Bakı Bələdiyyə Teatrının kollektivi İmadəddin Nəsiminin həyat və yaradıcılığına həsr olunan bədii kompozisiya nümayiş etdirib.

# Daha 687 şəhidin 1017 vərəsəsinə birdəfəlik ödəmənin verilməsi barədə qərar qəbul edilib



Prezident İlham Əliyevin müvafiq Fərmanının icrası olaraq, şəhidlərin vərəsələrinin birdəfəlik ödəmə (11 min manat) ilə təminatı işləri davam edir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində fəaliyyət göstərən komissiya daha 687 şəhidin 1017 vərəsəsinə birdəfəlik ödəmənin verilməsinə dair qərar qəbul edib. Birdəfəlik ödəmələrin yaxın günlərdə həmin vərəsələrin bank hesablarına köçürülməsi üçün müvafiq işlər aparılır.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, ümumilikdə 12268 şəhidin vərəsələrinin birdəfəlik ödəmə almaq hüququ müəyyən edilib ki, bu günədək artıq 10472 şəhidin 15498 vərəsəsinin birdəfəlik ödəmə ilə təminatına dair qərar qəbul olunub. Şəhidlərin vərəsələrinin birdəfəlik ödəmə ilə təminatı proqramı artıq 85,4 faiz icra olunub.

# "Bakı-Məşhəd" müntəzəm sərnişindaşıma marşrutu açılacaq

"Bakı-Məşhəd" müntəzəm sərnişindaşıma marşrutunun açılması və Azərbaycanda qeydiyyatda olan yük nəqliyyat vasitələrinin İran ərazisinə yüksüz daxil olması üçün tətbiq edilən məhdudiyyətlərin aradan qaldırılmasına dair razılığa gəlinib. Dövlət Avtomobil Nəqliyyatı Xidmətindən (DANX) AZƏRTAC-a bildirilib ki, Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında 2002-ci ilin mayında Tehranda imzalanmış "Beynəlxalq avtomobil daşımaları haqqında" Sazişin 13-cü bəndinə əsasən, beynəlxalq avtomobil əlaqələri sahəsində Birgə Komissiyanın növbəti iclası Bakıda keçirilib.

Görüşdə Azərbaycan nümayəndə heyətinə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin rəisi Həbib Həsənov, İran nümayəndə heyətinə Yol və Şəhərsalma Nazirliyinin Yol və avtonəqliyyat departamentinin tranzit və sərhəd-keçid məntəqələri ilə iş üzrə baş idarəsinin rəisi Mənuçehr Salmanzadə rəhbərlik edib. İclasda Azərbaycanla İran arasında beynəlxalq avtomobil daşımaları sahəsində mövcud vəziyyət, ticarət əlaqələri üzrə və hər iki ölkənin avtodaşıyıcıları tərəfindən "İcazə" blanklarının istifadəsi ilə bağlı statistik məlumatların mübadiləsi və kontingenti barədə, yük və sərnişin daşımaları zamanı avtodaşıyıcıların qarşılaşdığı problemlər və onların həlli yolları, cari ildə daşımaların həyata keçirilməsi üçün istifadə olunan "İcazə" blanklarının kvota sayı, daşımaların inkişafı perspektivləri və digər aktual məsələlər müzakirə edilib.

# Ermənistan mətbuatı nə yazır?

*"Jamanak" qəzeti - Paşinyan aprel məğlublarını geri qaytarır*




***"2016-cı ilin aprel hərbi əməliyyatlarından dərhal sonra, Serj Sarkisyan 26 apreldə həmin vaxtlarda rabitə idarəsinin rəisi, general-mayor Komitas Muradyanı istefaya göndərmişdi. Lakin o, yenidən Ermənistanın müdafiə nazirliyi sisteminə geri dönüb". Bu barədə "Jamanak" qəzeti yazır.***

"Maraqlıdır ki, aprel müharibəsindən sonra Serj Sarkisyan tərəfindən istefaya göndərilmiş iki general yeni hakimiyyətdə yenidən geri dönüblər. Birincisi - Ermənistan silahlı qüvvələrinin kəşfiyyat idarəsinin sabiq rəisi, general-mayor Arşak Karapetyandır ki, hazırda Nikol Paşinyanın hərbi məsələlər üzrə məsləhətçisidir və növbəti - Komitas Muradyandır" deyə erməni nəşri yazır.

Qeyd olunur ki, 2016-cı ilin aprelindən sonra qalmaqallı şəkildə istefaya göndərilənlərdən biri də müdafiə nazirinin keçmiş müavini, texniki-material təchizatı departamentinin rəisi Alik Mirzabekyandır və onun da geriyə - vəzifəyə qaytarılması mümkündür.

"Aprel hadisələri fonunda istintaq komissiyasının yaradılması zamanı bu təyinatlar maraq doğurur" deyə "Jamanak" nəşrində, xüsusilə, vurğulanır.

### "Tert" saytı - Sarkisyan gedir, Levon Ter-Petrosyan gəlir?

"Hələ bir neçə ay öncə, belə bir söz-söhbətlər yayılmışdı ki, Nikol Paşinyan Ermənistanın prezidenti postunda Ter-Petrosyanı görür. Bir çoxları, hətta bu məsələdə baş nazirin prezident Armen Sarksyanla münasibətlərində gərginlik yaşandığını bildirirdilər". Bu barədə Ermənistanın "Tert" saytı yazır.

"Bəzi məlumatlara görə, "Vətəndaş sazişi"nin bir neçə prinsipial deputatları Paşinyanın həmin təklifi ilə qətiyyən razılaşmadıqlarını deyərək, bəyan ediblər ki, inqilab Ter-Petrosyanın geri dönməsi üçün baş verməyib və xalq onları başa düşməyəcək" deyə yazan erməni saytı qeyd edir ki, bəziləri, hətta baş nazirə onun özü tərəfindən qəzetdə bir neçə silsilə yazılar yazdığını da xatırladıblar.

"Bizim mənbənin məlumatlarına görə, hakim fraksiyanın cəmiyyətlə münasibətlərinin mərhələli şəkildə dəqiqləşdirilməsi barədə qərar qəbul edilib. Xüsusilə, birinci mərhələdə Vaqe Qriqoryanın Konstirusiya Məhkəməsinin hakimi vəzifəsinə təyinatı məsələsində" yazan erməni nəşrinə görə, "onun adı birinci prezidentlə sıx bağlıdır" deyə xatırladıb.

Qeyd olunub ki, Vaqe Qriqoryanın adı Levon Ter-Petrosyanla bağlı olduğuna görə, onun konstitusiya məhkəməsinə hakimlik təyinatı sonradan Ter-Petrosyanın prezidentlik namizədliyinə müəyyən təsirlərini göstərə bilər. O cümlədən, Armen Sarkisyanın istefası məsələsi də gündəmə çıxarılacaq.

Sonda qeyd olunur ki, məsələ ilə bağlı Ter-Petrosyanın mətbuat katibi Arman Musinyandan təfsilatları öyrənmək istəsələr də, o, bununla bağlı hər hansı fikir bildirməyəcəyini deyib.

***Rövşən Rəsulov***

# "Nəsimi İli"nə həsr olunan növbəti müsabiqə

*YAP Tərtər rayon təşkilatı və Rayon Təhsil Şöbəsinin təşkilatçılığı ilə İmadəddin Nəsiminin 650 illiyi münasibətilə qiraət müsabiqəsi keçirilib*



Dünən YAP Tərtər rayon təşkilatı və rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Azərbaycanın böyük şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illiyi münasibətilə 14 rayon ümumtəhsil məktəbləri arasında qiraət müsabiqəsi keçirilib.

Tədbiri giriş sözü ilə YAP Tərtər rayon təşkilatının sədri Ramiz Şabanov açaraq bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə görkəmli Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illik yubileyi ilə əlaqədar 2019-cu il " Nəsimi İli " elan edilibdir. R.Şabanov qeyd edib ki, söz sənətinin son dərəcə qiymətli incilərini meydana gətirmiş bu filosof-şair yalnız Azərbaycan deyil, eləcə də, türk ədəbiyyatının təkmilləşməsinə töhfələr verib: "İmadəddin Nəsimi Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə bəxş etdiyi qüdrətli söz ustalarındandır. Nəsimi irsinin öyrənilməsi və təbliği, xatirəsinin əbədiləşdirilməsi istiqamətində mühüm addımlar, məhz Ümummilli Lider Heydər Əliyev tərəfindən atılıb. Ümummilli Liderin təşəbbüsü ilə Nəsiminin 600 illik yubileyi UNESCO-nun tədbirlər siyahısına daxil edilib, 1973-cü ildə beynəlxalq səviyyədə qeyd olunub və ölkəmizdə ilk dəfə Nəsiminin abidəsi ucaldılıb".



Sonda keçirilən yekun mərhələdə şəhər 6 saylı tam orta məktəbin IX sinif şagirdi Xəyyam Pərviz oğlu Mehdiyev I yerə, Güləbatlı kənd tam orta məktəbinin X sinif şagirdi Mirabbasağa Hafiz oğlu Abbaslı II yerə, şəhər 2 saylı məktəb-liseyin VIII sinif şagirdi Əfşanə Zaur qızı Əlizadə isə III yerə layiq görülüblər.

***RƏFİQƏ***

## Mişel Platini korrupsiya işi üzrə saxlanılıb



Avropa Futbol Assosiasiyaları İttifaqının (UEFA) sabiq rəhbəri Mişel Platini 2022-ci il futbol üzrə dünya çempionatının keçiriləcəyi yerin seçimində korrupsiya işi üzrə ittihamlar ilə əlaqədar saxlanılıb. Bu barədə Fransanın "Mediapart" nəşri xəbər yayıb.

Qeyd edək ki, 2010-cu ilin dekabr ayında Qətər 2022-ci il futbol üzrə dünya çempionatını keçirmək hüququnu qazanıb. Sonradan bəzi futbol məmurları Qətər nümayəndələrini səslərin satın alınmasında ittiham ediblər. Lakin Beynəlxalq Futbol Federasiyasının təhqiqatı nəticəsində rüşvət faktları aşkarlanmayıb. France Football jurnalı 2013-cü ildə məlumat yaymışdı ki, Qətərin seçkilərdə qələbəsini Fransanın ovaxtkı prezidenti Nikola Sarkozi və Platini təmin edib.

## Van Qoqun həyatına son qoyan revolver hərraca çıxarılacaq

Ehtimallara görə Visent Van Qoqun (1853-1890) özünə qəsd etdiyi "Lefaucheux" sistemli revolver iyunun 19-da Parisdə hərraca çıxarılacaq. "Drouot" satış evinin saytında yerləşdirilən məlumata əsasən, paslanmış revolver hadisənin baş verdiyi tarlada tapılıb. Lot 40-60 min avro dəyərində qiymətləndirilir.

Van Qoq 1890-cı ilin mayında qardaşı Teonun məsləhəti ilə Fransanın şimalında yerləşən Over-sür-Uaz kommunasına köçmüşdü. Həmin vaxta qədər rəssamın psixi vəziyyəti xeyli pisləşmişdi. İyulun 27-də Van Qoq rəsm çəkmək üçün alətlərini götürüb Over-sür-Uaz qəsrinin arxasındakı tarlaya gəlmiş və orada intihar etmişdi. 1960-cı ildə yerli fermerlərdən biri revolveri tapıb və silahın hazırkı sahibinin valideynlərinə verib.

## Qarabağda erməni əsgəri ölüb



Dünən səhər saatlarında Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ bölgəsində erməni hərbi qulluqçu yol qəzasına düşüb. SİA erməni KİV-lərinə istinadən xəbər verir ki, qəza nəticəsində ağır yaralanan Araik Balasanyan adlı hərbçi hospitala yerləşdirilib. Həkimlərin səylərinə baxmayaraq, onun həyatını xilas etmək mümkün olmayıb. Faktla bağlı araşdırma aparılır.

## Rusiya səfiri Ermənistan XİN-ə çağırıldı



Rusiyanın Ermənistandakı səfiri Sergey Kopırkin Ermənistanın sabiq prezidenti Robert Koçaryanla görüşdükdən sonra bu ölkənin Xarici İşlər Nazirliyinə çağırılıb. SİA 1in.am saytına istinadən xəbər verir ki, (https://ru.1in.am/1261491.html) bu barədə parlamentin Xarici əlaqələr komissiyasının sədri Ruben Rubinyan məlumat verib.

Daha öncə Rusiyanın diplomatik missiyasından bildirilib ki, S.Kopırkin ictimai siyasi və işgüzar dairələrlə keçirilən müntəzəm görüşlər çərçivəsində R.Koçaryanla da görüşüb. "Bu gün mən komissiyanın bu görüşün müzakirəsinə həsr olunmuş iclasından sonra xarici işlər naziri Zöhrab Mnatsakanyanla danışdım. O bildiridi ki, səfir bununla bağlı cümə günü XİN-ə çağırılıb. Səfirlə söhbət aparılıb və ona Ermənistanın daxili işlərinə qarışmamaq tövsiyə olunub", - deyə R.Rubinyan bildirib.

## Xaçmazdan Bakıya satmaq üçün narkotik vasitə gətirən şəxs tutulub

Daxili İşlər Nazirliyinin (DİN) Baş Narkotiklərlə Mübarizə və Baş Dövlət Yol Polis idarələrinin birgə həyata keçirdikləri uğurlu əməliyyat nəticəsində satmaq niyyəti ilə paytaxt ərazisinə narkotik vasitələr gətirən şəxs saxlanılıb. DİN-dən AZƏRTAC-a bildiriblər ki, Xaçmaz rayon sakini, əvvəllər məhkum edilmiş Mübariz Novruzi paytaxt istiqamətində hərəkətdə olan zaman onun sərnişin kimi əyləşdiyi avtomobil daxil olmuş məlumat əsasında Yol Patrul Xidməti Alayının 1-ci tağımının Saray qəsəbəsindəki stasionar postunda saxlanılıb. Onun üzərində axtarış aparılan zaman 251,189 qram yüksək təsiredici xassəyə malik heroin və 250,015 qram tiryək aşkarlanaraq götürülüb. M.Novruzi ifadəsində narkotik vasitələri satmaq niyyəti ilə Bakıya apardığını etiraf edib. Faktla bağlı saxlanılan şəxs barəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb, istintaq tədbirləri davam etdirilir.



səs
www.sesqazeti.az
facebook Ses Media Holding
19 iyun 2019-cu il

# Möcüzələr diyarı İsmayıllı turizm məkanına çevrilib

***İnsan təbiətin bir parçası, təbiət isə həyat mənbəyidir. Tanrının yaratdığı varlıqlardan Azərbaycan təbiəti səxavətini əsirgəməyib. Yer üzündəki iqlim qurşaqlarının doqquzuna çox da böyük olmayan respublikamızın ərazisində rast gəlmək mümkündür. Mülayim iqlimi, günəş şüası ilə yanaşı, bol yağışı, bəyaz qarı insanın ruhuna yeni bir ruhi qida bəxş edir.***

İlin müxtəlif fəsillərində yazın ılıq nəfəsini duyur, yayın günəşini, payızın rəngarəng gözəlliyini, qışın bəyaz qarını görür və hiss edirik. Hələ təbiətin heyvanat aləmini, çayını və dağlarını demirik. Həm florası, həm də faunası ilə zəngin olan Azərbaycanın hər bir bölgəsinin təbiəti digər bölgənin təbiətindən xeyli dərəcədə fərqlənir. Bu zənginlik göstərir ki, Tanrı Azərbaycan xalqına bütün gözəllikləri bəxş edib. Belə məkana sahib olan Azərbaycan turist ölkəsi olaraq tanınıb. Turizmin inkişafına təkan verən ölkə təbiətinin özünəməxsusluğu, zəngin təbiətlə yanaşı, ölkənin artan iqtisadi potensialı, dövlətimizin turizm sahəsinə ayırdığı diqqətdir. Ekspertlərin qənaətlərinə görə, XXI əsrin 20-ci illərində turizm dünyada bütün göstəricilərə görə, iqtisadiyyatın aparıcı qüvvəsinə çevriləcəkdir. Azərbaycanda turizm sektoru dinamik inkişafdadır və yeni bir mərhələni yaşayır. Dünyanın müxtəlif ölkələrindən Azərbaycana gələn qonaqlar yüksək səviyyədə qurulmuş turizm obyektlərində istirahət edərək, buranın təbiətinə valeh olurlar. Azərbaycanın belə məkanları sırasında İsmayıllının öz yeri, öz payı var.










İsmayıllı rayon ərazisində turizmin, demək olar ki, bütün növləri mövcuddur: kənd turizmi, aqroturizm, ekoturizm, etnoturizm, nostalji turizm, idman turizm, ov turizmi və s. İsmayıllıda turizm obyektlərinin sayı xeyli artıb. Hər bir obyektdə istirahət üçün gözəl şərait yaradılıb. Bu turizm-istirahət mərkəzləri dağ, çay və meşə zolaqları ilə əhatə olunur. Meşələrin ümumi sahəsi 66799 ha olduğu ərazi, gil yatağı, mineral bulaqlarla zəngindir. İsmayıllı meşələrində palıd, cökə, ağcaqayın, şam, fıstıq və digər ağac növləri mövcuddur. Bu meşələrdə bir çox heyvan növləri var ki, bunlardan canavar, tülkü, ayı, maral, cüyür, dələ, çaqqal və s. qeyd etmək lazımdır.

## İSMAYILLININ TURİZM VƏ İSTİRAHƏT MƏQSƏDLƏRİ ÜÇÜN TƏBİİ POTENSİALI BÖYÜKDÜR

Böyük Qafqaz sıra dağlarının ətəklərində yerləşən gözəl və səfalı yerlərdən biri olan İsmayıllı şimaldan Quba, cənubdan Kürdəmir və Göyçay, qərbdən Qəbələ, şərqdən Şamaxı rayonları ilə həmsərhəddir. İsmayıllı çox gözəl təbiəti, bərəkətli torpaqları və mehriban insanları ilə seçilir. Azərbaycanda mövcud olan 9 iqlim tipindən üçü İsmayıllı rayonunda mövcuddur. Subtropik və qismən mülayim iqlim qurşağında yerləşir. İqlim ehtiyatlarının kurort və istirahət məqsədləri üçün də istifadə edilməsi imkanları böyükdür.

Rayon ərazisindən 20 dağ çayı axır. Ən böyükləri olan Göyçay çayı, Girdmançay, Ağsuçay, Pirsaatçay başlanğıcını rayonun şimalından, Baş Qafqazın Baş suayırıcı silsiləsindən götürür. Rayonun təbiəti, heyvanat aləmi çox zəngindir. Ərazisindən Girdiman, Ax-ox və Göyçay çayları axır. Qalacıq, Cülyan, Çayqovuşan, Brovdal, Müdrüsə kəndlərinin yaxınlığında füsunkar şəlalələr, dağlıq ərazidə təbii göllər, Kürdmaşı və Aşıqbayram kəndləri yaxınlığında irihəcmli sututarları mövcuddur. İsmayıllıya üz tutan turistlər buranın göllərinə də böyük diqqət ayırırlar. Turistlər göllər ətrafında gəzərək, gözəl istirahət edə bilərlər. Öz gölləri ilə də diqqəti cəlb edən İsmayıllı rayonunda Qaranohur gölü, Aşıqbayram gölü var ki, bu göllərdə bol balıq tutmaq mümkündür. Kənarlarında isə qidalanma üçün yüksək xidmətləri vardır.

Lahıc qəsəbəsi də İsmayıllının dilbər guşələrindən biridir. Lahıc Böyük Qafqaz sıra dağlarının cənub yamacında, dəniz səviyyəsindən 1500 m yüksəklikdə yerləşir. Burada dəniz səviyyəsindən 1700 m yüksəklikdə yerləşən Lahıc şəlaləsi qəsəbənin ən görməli yerlərindən biridir. Bura gələn turistlər Lahıcla bərabər bu şəlaləni də görə bilərlər. Cülyan şəlaləsi isə İsmayıllı rayon Culyan kəndi dağətəyi ərazidə, rayon mərkəzinə 3 km məsafədə yerləşir. Kənddə yerləşən "Cənnət bulağı" İstirahət Mərkəzindən bu şəlaləyə piyada yolu ilə 40 dəqiqəyə getmək olar. Yol boyu sıx meşəliklər və gur axar sular vardır. Qalacıq şəlaləsi isə rayonun 26 km-də yerləşən Qalacıq kəndinin 2,8 km şimal-qərb istiqamətində yerləşir. Yol boyu məlumat lövhələri və istiqaməti bildirən nişanlar yerləşdirilib. Yollar sıx fıstıq, vələs və digər ağaclarla əhatə olunub. Dəniz səviyyəsindən 1500 m hündürlükdə yerləşən Qalacıq şəlaləsinin başlağıc yeri qayalıqlarla əhatə olunub. Şəlalənin mənbəyi bulaq sularıdır.

## MİSGƏRLİK, XALÇAÇILIQ VƏ KƏLAĞAYI SƏNƏTİNİN BEŞİYİ

İsmayıllı rayon ərazisində tarixən sənətkarlıq yaranıb, inkişaf etmişdir. Lahıc və Basqal qəsəbələrində çox qədim zamanlardan xalq sənətkarlığının inkişafı, milli üslubda aparılan tikintilər xalqımızın qədim memarlıq ənənələri haqqında canlı təsəvvür yaradır. Yüksək estetik dəyərlərə malik, millimənəvi irsimizə və tarixi keçmişimizə dərin hörmət hissi oyadan bu abidələr forma zənginliyi və estetik təsir gücü ilə səciyyələnir.

Qeyd edək ki, Basqal, nəinki İsmayıllının, həmçinin, Azərbaycanın ən qədim ərazilərindən sayılır. Onun tarixi hələ 4-cü yüzilliyə gedib çıxır. Hətta bir vaxtlar bura rayon mərkəzi olub. İndiki bu ərazi qədimdə Alban dövlətinin ərazisi olub. Daha qədim dövrlərdə isə Azərbaycanın qədim ipəkçilik mərkəzlərindən olub. Burada kələğayı sexi fəaliyyət göstərmişdir. Lakin sonradan sex öz fəaliyyətini dayandırıb. Basqal kələğayı ipək sapdan toxunur, dördkünc formalı ənənəvi Azərbaycan qadın baş örtüyüdür. Hətta 1-ci Dünya müharibəsi dövründə Basqalda 1500 dəzgaha malik 900 şərbafxana vardı ki, il ərzində 1 milyon 800 min kələğay istehsal edirdi. Hazırda sex tam fəaliyyət göstərməsə də. yalnız ipəyin boyanması və bəzədilməsi kimi fəaliyyət göstərir. Sexin ərazisində Kələğayı Muzeyi yaradılmışdır.

İsmayıllı rayonunda qədim sənətlərdən olan xalçaçılıq yaşamaqdadır. Hazırda rayonda AzərXalça ASC İsmayıllı rayon filialı fəaliyyət göstərir. Bundan başqa "Xoşbəxt-X" MMC fəaliyyət göstərir və ərazisində olan kiçik Xalça Muzeyi turistlərin marağına səbəb olmuşdur.

İsmayıllı rayonu Lahıc qəsəbəsinin sakinlərinin ən əsas çörək ağacı - tarixən ən populyar sənət misgərlik olub. Bu da, təbiidir. Əvvəllər mis qablar məişətin vazkeçilməz parçası idi. İndi məişətdə istifadə edilmədiyindən, misdən daha çox suvenir əşyalar hazırlayırlar. XIX əsrdə Lahıcda 60-dan artıq misgər olub. Ən qədim əl sənətlərindən olan misgərlik ailədən-ailəyə ötürülür və əsla, unudulmur. Odur ki, bəzən kənardan birisi uşağını gətirib, bu ustalara deyəndə ki, bir il yanınızda qalıb sənəti öyrənsin, lahıclı misgərlər gülürlər. Çünki onlara görə, bu işi görmək istəyən hər bir insan mis qoxusuyla böyüməli, dəzgahın ətrafında tərbiyə olunmalıdır. XVIII-XIX əsrlərdə misgərlik və silah istehsalat mərkəzlərindən olan Lahıcda misəritmə ocaqları hələ də durur. Yerli ustaların düzəltdikləri əl işləri Orta Asiya, Dağıstan, Gürcüstan, İran, Türkiyə və digər yerlərdə tanınıb. 1717-1718-ci illərdə lahıclı usta Nəcəfqulunun düzəltdiyi samovarlar çox məşhur olub.

## İSMAYILLININ TURİZM OBYEKTLƏRİNƏ OLAN MARAQ İLBƏİL ARTIR

Bu məkanın bir-birindən fərqli mənzərələrindən, tarixi yerlərindən yazdıqca, sona yetmir. Qalaları, çayları, düzləri hər bir turistin diqqətindədir. Təmiz havası, suyu, iqlimi və qonaqpərvər insanları ilə turistləri cəlb edir. Hələ mətbəxi, dadlı təamları... Bir möcüzə diyarıdır.

Rayona gələn turistləri sayının ilbəil artması da, elə buranın ən gözəl turist məkanlarında biri olmasıdır. İsmayıllıda turizmin daha da inkişaf etdirilməsi məqsədilə mühüm tədbirlər həyata keçirilir. Son illərdə İsmayıllı şəhərində, Lahıc, Qaraqaya, Sumağallı kəndlərinin yaxınlığında və digər yerlərdə çoxsaylı istirahət mərkəzləri və kompleksləri tikilib istifadəyə verilib və yeni turizm marşrutları müəyyənləşdirilib. Rayon ərazisində 35 istirahət mərkəzi, 3 istirahət və uşaq-əyləncə parkı, park daxilində bir zoopark, atraksionlar fəaliyyət göstərir. Bütün bunlar rayonda turizminin daha da inkişaf etməsinə xidmət edir.

Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncam və göstərişlərinə əsasən, regionlarda kənd və qəsəbələri birləşdirən yolların, habelə, yaşayış məntəqələrində daxili yolların təmiri və yenidən qurulması bölgələrdə həm də turizmin inkişafına güclü təkan verir. İsmayıllının Lahıc qəsəbəsi ilə Şamaxının Dəmirçi kəndini birləşdirən yeni yol da, bu baxımdan, əhəmiyyətlidir.

Hər il respublika paytaxtında keçirilən turizm sərgilərində rayona aid çoxsaylı eksponatların nümayişi, dünya səviyyəli ixtisaslaşdırılmış yarmarkalarda iştirak etməsi, turizm mərkəzlərinin nailiyyətləri barədə dolğun məlumatların yayımlanması İsmayıllının turizm obyektlərinə olan marağını daha da artırır.

Qeyd edək ki, turizm iqtisadiyyatımızın əlverişli hissəsi olmaqla, xırda və orta sahibkarlıq üçün də möhkəm baza yaradır, rayonda turizmin inkişafı yeni iş yerlərinin açılmasına kömək edir, regionun infrastrukturun formalaşdırılması üçün əlverişli şərait yaranır. Bütün bunlar, əlbəttə, Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi İnkişafı Proqramının və yoxsulluğun aradan qaldırılması Proqramının əsas müddəalarına cavab verir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Fransadan ermənilərə tərs şillə

***Ermənilərə növbəti dəfə zərbənin Fransanın Qrenobl şəhərindən gəlməsi heç də sıradan bir hadisə deyil. Bu, bütövlükdə, erməni cəmiyyəti üçün çox ciddi məsələ hesab olunur. İndi bütün dünya ictimaiyyətinin diqqətini cəlb edən bu hadisə erməni lobbisinin, ələlxüsus, Fransada özünə əmelli-başlı yer eləmiş erməni diasporunun laxmalasını, imkanlarının itirilməsini təsdiq edən fakt kimi, məhz diqqət mərkəzindədir.***



Əslində, Ermənistan və onun mövcudluğu haqqında düşünərkən, göz önünə və ağıla ilk öncə, erməni diasporları, lobbiləri və ölkə hüdudlarından xaricdə özünə yer eləmiş erməni birlikləri gəlir. Çünki heç bir məşğuliyyəti olmayan Ermənistanın varlığı bu birliklərin əldə etdiyi, daha doğrusu, qopardığı iyanələrdən birbaşa asılıdır. Belə olan halda, erməni diasporunun, lobbisinin imkanlarından məhrum olmasının Ermənistan üçün nə demək olduğunu təsəvvür etmək çətin deyil.

Hadisələrin gedişatını izlədikdə, bəlli olur ki, artıq işlər heç də erməni birliklərinin ürəyincə getmir və əksinə, Qərb indi öz münasibətində kəskin dəyişiklikləri ilə onlara şok yaşadır. Ötən il Bundestaqdakı "Almaniya üçün alternativ" adlı ermənipərəst sağ radikal fraksiyanın Qarabağ ilə bağlı sorğusuna hökumətin, "həmin ərazilər Azərbaycana məxsusdur", cavabı ermənilər üçün yetərincə ağır zərbə hesab olunur desək, yanılmarıq. Çünki dəstək əvəzinə, bunun əksini görən işğalçılar üçün bu cavab onların yerinə oturdulması demək idi və özləri də bunu yaxşı başa düşürlər.

Bir az daha diqqətlə yanaşdıqda, bəlli olur ki, Avropa artıq erməni simasına yaxından bələd olub və reaksiyası da özünü çox gözlətməyib. Məsələn, İspaniyada və Almaniyada ötən il erməni mafiyasına qarşı keçirilən ardıcıl əməliyyatlardan sonra bu toplumun əsl siması bir daha üzə çıxdı. Əməliyyatlar nəticəsində, erməni kriminalının mahiyyəti növbəti dəfə Avropa üçün əyan oldu ki, yekunda, bu, öz təsirini ermənilərə olan münasibətdə göstərmiş oldu. Bu isə, öz növbəsində, erməni kriminalı ilə daha yaxından tanış olan Avropada ermənilərin dayaqlarının əməlli-başlı zəifləməsi anlamına gəlir. Əbəs yerə deyil ki, artıq bu da öz məntiqi nəticələrini göstərməkdədir.

Məsələ burasındadır ki, erməni diasporu heç Amerikada da əvvəlki durumda deyil. Diaspor özü belə həmin ölkədə maliyyə sıxıntısı keçirdiyini gizlətmir və açıq-aşkar etiraf da edir. Etiraf edir ki, dünyanın ən fövqəldövləti olan Amerikada indi artıq istədiyi vəsaiti, arzuladığı məbləği-pulu toplaya bilmir. Artıq ermənilər üçün amerikalılardan vəsait qoparmaq da müşkülə çevrilib. Bunun isə, ianələr hesabına mövcudluğunu qoruyan, dilənçilik strategiyası ilə var olan ermənilər üçün nə demək olduğunu təsəvvürə gətirmək asandır. Həm də xoşdur... Çünki əsrlər boyu "it araba kölgəsində yatır, elə bilir öz kölgəsidir" misalında, ermənilər bu kölgədən də məhrum olaraq, həqiqətlər qarşısında təslim olmaq məcburiyəti ilə üz-üzə qalıblar. Bir sözlə, son hadisə Fransadan ermənilərə tərs şillə effekti verdi.

### Ermənistanın özünü Azərbaycanla müqayisə etməsi onlar üçün acınacaqlı vəziyyəti vəd edirdi və nəticə də göz qabağındadır

Sözsüz ki, Fransada qanunsuz rejimlə imzalanmış 5 xartiyanın ləğv olunmasının əsaslı kökləri olduğuna indi artıq zərrə qədər şübhə yeri yoxdur. Ermənilərin uzun zamandır arxalandıqları Fransada belə bir reallıqla üz-üzə qalmaları, əlbəttə ki, təsadüfi ola bilməzdi. Məsələnin əsl mahiyyətini, bir sözlə ifadə etməli olsaq, bu vaxta qədər Fransada çox güclü olan ermənilər aciz durumdadırlar və artıq gücsüzdürlər. Təkcə Fransada deyil, bütövlükdə, Avropada erməni lobbisinin, erməni birliklərinin imkanlarının sıfıra yaxınlaşması günün reallığıdır və bu reallığın səbəbləri artıq dünya ictimaiyyəti üçün də sirr deyil.

Ermənilərin, daha dəqiq desək, Ermənistanın asılı olduğu erməni diasporlarının, birliklərinin, nəticədə, bu işğalçı dövlətin özünün getdikcə belə aciz duruma düşmə səbəbləri müxtəlifdir və yetərincə çoxdur. Bunları bir-bir sadalamaq da çətin deyil, amma ən vaciblərinin üzərində dayanmaq istərdik. Əvvəla, heç də gizli deyil ki, indi köhnə qitə və orada olan ayrı-ayrı dövlətlər Nikol Paşinyanla normal münasibətlər qura bilmirlər. Amerika da bunu istəmir və zərrə qədər də meyil etdiyi duyulmur. Çünki ermənilərin, eyni zamanda, həm Rusiyaya, həm də Avropaya, Qərbə meyil etməsi, gah birinə, gah da onunla tam əks-qütbdə, mövqedə olan digərinə tərəf getməsi heç birinin xoşuna gəlmir. Rusiyanın yaratdığı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına, eyni zamanda, həm də Avrasiya İqtisadi Birliyinin üzv olmağa, həmçinin, Avropa İttifaqına can atmaqla, Tərəfdaşlıq Sazişi imzalamaqla və NATO ilə əməkdaşlığı genişləndirməklə, Ermənistanın hansı oyunu oynadığı bəlli olur və bu da, sözsüz ki, heç birinin xoşuna gələ də bilməz.

Əgər Ermənistan Azərbaycan kimi balanslı, çoxşaxəli və tarazlı siyasət aparmaq arzusuna düşübsə belə, yenə də möhkəm yanılır və onların bu yolu seçmələri düzgün olmadığı üçün, iflasa məhkumdur. Ermənilər bilməli idilər ki, bu şəkildə siyasət aparmaq mürəkkəb bir konsepsiya olmaqla, onlara müyəssər olacaq deyil və bunu Ermənistandan fərqli olaraq, Azərbaycan edə bilər. Çünki buna onların, hansısa dövlətin əlinə baxan Ermənistanın deyil, Azərbaycanın potensialı, imkanları, düşünülmüş, müstəqil siyasəti şərait yaradır. Amma bu yanlış seçimləri, daha dəqiq desək, xülyaları onların, bütövlükdə, bütün Ermənistanın əleyhinə çevrildi. Bir az daha dəqiq ifadə etsək, Ermənistanın özünü Azərbaycanla müqaisə etməsi onlar üçün acınacaqlı vəziyyəti vəd edirdi və nəticə də, göz qabağındadır.

### Azərbaycanın diplomatik qələbələrinin bundan sonra daha çox olacağı, ermənilərin isə məğlubiyyəti günün reallığıdır

İndi artıq Avropa, Qərb, eləcə də, bütün dünya çox yaxşı başa düşür ki, Azərbaycan işğalçılıq siyasəti yürüdən, daim ianələr, yardımlar hesabına dilənçi kökündə yaşayan Ermənistan ilə eyni tərəziyə belə qoyula bilməz. Ermənilərə qarşı münasibətlərin neqativ istiqamətdə kəskin dəyişməsinin isə, əsas səbəbi, elə burur. Ermənilər artıq qəbul və etiraf etmək məcburiyyətindədirlər ki, Azərbaycanın bütün dünya dövlətlərinə təsir imkanları xeyli artıb və bu imkanlar işğalçı dövlətlə müqayisəyə gəlməyəcək dərəcədə çoxdur. Eyni zamanda, işğalçılar bilməlidirlər və bilirlər ki, bütün dünya Azərbaycana, onun maraqlarına heç vaxt olmadığı qədər həssaslıqla yanaşır. Bunun da, bu yanaşmanın da əsaslı səbəbləri var və bu səbəblərdən də ən vacib olanlardan biri, hətta birincisi Azərbaycanın Ermənistandan fərqli olaraq, faydalı tərəfdaş olmasıdır. Azərbaycan özünün uğurlu siyasəti, əldə etdiyi müvəffəqiyyətləri, inkişafı, eləcə də, imkanları və təbii ehtiyatlarından tutmuş strategiyalarına qədər diqqət mərkəzində və maraq dairəsindədir.

Son illərdə Azərbaycanda keçirilən qlobal tədbirlərin, ələlxüsus forumların, beynəlxalq miqyaslı idman yarışlarının diplomatik effekti, artıq özünü göstərməkdədir. Bir zaman Azərbaycanda belə qlobal miqyaslı tədbirlərə ağız büzənlər belə fərqinədirlər ki, bu istiqamətdə qoyulan investisiyalar, artıq dividendlər gətirməyə başlayıb və siyasi-diplomatik sahədə bunu müşahidə etmək də çətin deyil. Azərbaycan imza atdığı qlobal layihələrə, beynəlxalq yarışlara ev sahibliyinə, ümumiyyətlə, inkişaf modelinə, eyni zamanda, inkişaf strategiyasının düzgün istiqamətlərinə görə, məhz diqqət mərkəzindədir və bu da uğurların açarıdır.

Əslində, bütün dünyaya səpələnmiş ermənilərə, erməni lobbilərinə olan bu saymaz münasibət, onların imkanlarının böyük sürətlə aşağı düşməsi elə Azərbaycanın yürütdüyü məqsədyönlü və düzgün seçilmiş siyasətin, ölkəmizin hər bir sahədə əldə etdiyi uğurların məntiqi nəticəsidir. Bir sözlə desək, bu gün ermənilərin dünya miqyasında imkanları heçə enirsə, Fransa kimi ən yaxın hesab etdikləri dünya dövlətlərindən dəstəyi kəsilirsə, Avropada, Qərbdə müdafiəsi istər maddi, istərsə də mənəvi baxımdan əllərindən alınırsa, bu, Azərbaycanın diplomatik uğuru və qələbəsi kimi dəyərləndirilir. İndi Fransadan başlayan prosesin hələ bundan sonra digər dünya dövlətlərini də əhatə edəcəyini təkzib etmək tamamilə mümkünsüzdür. Fransada ermənilərin bu uğursuzluqları və sözün əsl mənasında, diplomatik məğlubiyyətləri ən yaxın zamanda öz məntiqi nəticələrini də göstərəcəyinə şübhə ola bilməz. Azərbaycanın diplomatik qələbələrinin artıq bundan sonra daha çox olacağı, ermənilərin isə məğlubiyyəti günün reallığıdır.

***İnam HACIYEV***

## Mübariz Əhmədoğlu: "Paşinyanın oğlu Tonoyanın əlində girovdur"



Son günlər Ermənistanda baş verən proseslərin duetlər şəklində özünü göstərdiyini deyən Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin direktoru, politoloq Mübariz Əhmədoğlu bildirib ki, bu duetlərdə Paşinyan-Tonoyan dueti əsas yer tutur: "Ermənistanda baş verən proseslərdə müxtəlif duetlər özünü aydın şəkildə göstərir. Bəzən bir-birinə zidd görünsə də, reallıqda müasir Ermənistanın idarəetmə strukturu, demək olar ki, duetlərdən ibarətdir. Belə duetlərdən biri Paşinyan-Tonoyan duetidir. Əslində, bu dueti aşkara çıxaran N.Paşinyanın özü oldu. D.Tonoyan ABŞ-da olarkən, "yeni ərazilər əldə etmək üçün yeni müharibələr" tezisini ortalığa qoydu və sonradan N.Paşinyan bunu aşkar şəkildə dəstəklədi. N.Paşinyanın fikrincə, əgər D.Tonoyan belə deməsəydi, fərqli desəydi, Paşinyan onu işdən çıxarardı. ATƏT-in Minsk Qrupu həmsədrləri, o cümlədən, Azərbaycan Respublikasının Prezidenti ilə təmasda isə Paşinyan tam əks mövqedədir, dinc tənzimlənməni prioritet elan edir. Az keçmiş, bəlli oldu ki, D.Tonoyanın ABŞ-da verdiyi bu bəyanatın arxasında daha çox ABŞ-dakı erməni icmasından pul qoparmaq dayanır və o da, bəlli oldu ki, N.Paşinyanın həyat yoldaşı Anna Akopyan, ABŞ-a pul toplamağa gedəcək. Sonradan bəlli oldu ki, ABŞ-dakı erməni icması Anna Akopyana demək olar ki, pul vermədi, cəmi 1milyon dollar pul vədi verildi. Onun da 600 min dolları proqram reallaşdıqdan sonra verilmədir. Yəni Anna Akopyan 600 min dollar pul tapmalı, uşaq bağçaları ilə bağlı hansısa humanitar layihəni reallaşdırmalıdır. Sonra ABŞ-dakı fondlardan biri, ona bu məbləğdə pulu verəcək. Toplanan 500 min dolların özü də kifayət qədər şübhə altındadır. Ən yaxşı halda, Anna Akopyan ABŞ-dan 500 min dollar pul gətirdi və bu pulla Azərbaycan ərazisini işğal etmək mümkün deyil. Anna Akopyanın özünün müxtəlif "cib xərcləri" var".

M.Əhmədoğlu Paşinyan-Tonoyan duetinə toxunaraq bildirib ki, bu duetdə maraqlı dinamika var: "Nikol Paşinyanın reytinqi aşağı düşdükcə, D.Tonoyanın hərbi nazir kimi siyasətə müdaxiləsi və qətiyyəti artır. Tonoyanın atdığı addımların səbəbi isə, baş nazirin oğlunun hərbi xidmətdə olmasıdır".

Politoloq onu da vurğulayıb ki, N.Paşinyanın oğlunun hərbi xidmətdə olması artıq kifayət qədər siyasiləşmiş məsələdir: "N.Paşinyanın oğlu Aşot Paşinyanın hərbi xidmətdə olması, artıq kifayət qədər siyasiləşmiş məsələdir. Dağlıq Qarabağın içərisində "gəzmədiyi" hərbi hissə yoxdur. N.Paşinyan oğlunun Xankəndidə qondarma qurumun Müdafiə Nazirliyinin binasında xidmət etməyə çalışırdı və buna da nail oldu. Buna manečilik törədən Levon Mnasakanyanı, hətta işdən də çıxardılar. Sonra bəlli oldu ki, ümumiyyətlə, Aşot Dağlıq Qarabağda xidmət edə bilməz, dərhal onu Yerevana gətirdilər. İndi hal-hazırda, o, Ermənistandakı hərbi hissələrin birində xidmətdədir və D.Tonoyan istənilən anda bu hərbi hissədə istədiyi vəziyyəti yarada bilər. Beləliklə, Aşot Paşinyan Ermənistan ordusunda olan çoxsaylı qeyri-hərbi itkilərin sayını artıranlardan ola bilər. Məhz buna görə də, D.Tonoyan yaranmış vəziyyətdən öz xeyrinə istifadə edir. Çalışacaq ki, Aşot Paşinyanın qalan 6 ay hərbi xidməti dövründə aprel komissiyası işini başa çatdırsın və gəldiyi nəticələr D.Tonoyanın maraqları ilə ziddiyyət təşkil etməsin. Əks-təqdirdə, Paşinyanın nəsli kəsiləcəkdir".

***RƏFİQƏ HÜSEYNOVA***

# Müxalifət düşərgəsində Əli Kərimli xəyanəti

## Sərdar Cəlaloğlu: *"Əli Kərimli satqın olduğu qədər də əxlaqsızdır"*



Zaman-zaman, özünü "ana müxalifətin lideri" kimi təqdim etməyə çalışan AXCP sədri Əli Kərimlinin son an-da ətrafına toplaşmış adamları al-datması haqqında çoxsaylı faktlar mövcuddur. Danılmaz faktlara rəğmən, onun hələ də gündəmə çıx-ması, hadisələrə münasibət bildir-məsi ictimai rəyə siyasi həyasızlıq təsiri bağışla-yaraq özünü indi də müxalifətin "lideri" olmaq id-diası ilə çıxış etməsi düşərgədə ikrah hissi ilə qar-şılanır. Ən əsası isə, siyasi arenada barəsində ki-fayət qədər faktlar danışılan Kərimlinin bu günə qədər partiyasına sədrlik etməsi anlaşılmaz olaraq qalmaqdadır.

### Əli Kərimlini ifşa edən faktlar...

Ə.Kərimli düşərgənin "lideri" kimi, hətta ica-zəsiz mitinqlər çağırışı etməklə, qərarlar verirdi. "Yurd" şefinin təxribatçı qərarı, bu qərarın nəticə-ləri Müsavat, ADP, ALP, ALDP, "VİP" və s. parti-yaların narazılığına səbəb oldu. Sonradan isə bəlli məlum ittihamlar irəli sürüldü. Məsələn, ica-zəsiz, oturaq mitinq keçirmək qərarından sonra Kərimli tərəfindən aldadılmış bir sıra şəxslər həbs olundular. Bu amil düşərgə daxilində kəskin qar-şıdurmalara çevrildi. Ə.Kərimli müxalifətin belə bir ağır vəziyyətə düşməsində əsas günahkar ol-duğu sübut edildi.

Ancaq bu kimi faktlar azmış kimi, Kərimli si-yasi ambisiyalarına çatacağını xəyal edir və eyni ssenarini illər boyu təkrarlayır. Özünü "müxalifə-tin lideri" kimi zorla cəmiyyətə sırımağa çalışan "Yurd" şefi bu dəfə "Milli Şura"-AXCP amili ətra-fında siyasi gedişlərini reallaşdırmağa çalışdı, ancaq heç nəyə nail ola bilmədi. Üstəlik, ona əl uzadan digər müxalifət partiyalarına rədd cavabı verdi. Məsələn, Müsavat ümumi müxalifətin mi-tinqlərin keçirilməsini təklif etdi, partiya rəhbər-liyi səviyyəsində müraciət olundu. Lakin Kərimli "Milli Şura" daxilində hərəkət edəcəyini "əsas" gətirdi. Bu təklifə isə, əlbəttə ki, heç kəs yaxın gəlmədi. Çünki "Milli Şura"nın ölkə maraqlarına qarşı fəaliyyəti də kimsəyə sirr deyildi. Bu gün düşərgədə Ə.Kərimli müxalifəti pis günə qoyan xəyanətkar və şəxsi ambisiyaları naminə hətta yaxın çevrəsini satmağa hazır olan siyasi şeytan kimi qəbul olunur.

### Sərdar Cəlaloğlu: "Əli Kəriml müxalifətin "lideri" yox, satqınıdır"

ADP sədri Sərdar Cəlaloğlu AXCP sədri Ə.Kərimlinin həyasızcasına müxa-lifətin "lideri" olmaq iddiasına qarşı kəskin reaksiya verərək, bildirib ki, bu, artıq lap ağ oldu: "Ə.Kərimli mü-xalifətin "lideri" deyil, satqınıdır. O, heç AXCP "lideri" ola bilmədi. Elçi-bəyin ölümündən sonra partiya par-çalandı. Ə.Kərimlinin əlində qalan hissə 6-7 yerə dağıldı. Bir təşkilata liderik edə bilməyən insan necə müxalifətin lide-ri ola bilər? Bütün bunlar onun hakimiyyət həris-liyini göstərir. O, müxalifətdə qalmağından özünə hakimiyyət düzəltmək istəyir".

S.Cəlaloğlu Ə.Kərimlinin Elçibəyə xəyanət et-diyini diqqətə çatdırıb: "Bizi tənqid edənlər keçmi-şə nəzər salsınlar. Ə.Kərimli deyir ki, Elçibəy lide-rimdir. Qeyd edim ki, ölənə qədər Elçibəy onu ya-xına buraxmamışdı. Çünki Ə.Kərimli ona sağlığın-da xəyanət etmişdi. 1998-ci ildə seçkilər boykot ediləndə, Elçibəyin müavini ola-ola, o, Etibar Məmmədovla saziş imzalamışdı. Öz fikirlərini dik-tə etdirmək üçün Xalq Cəbhəsinin daxilinə "yurd-çular" salmışdı. Ə.Kərimli müxalifətin bir neçə bir-liyini parçalayıb, parlamentdən yer alan şəxsdir. Bu adamın hərəkata gəlməsinin özü necə olub? Onu universitetdən meydana göndərən komsomol katibi kimdir? Hansı məqsəd və tapşırıqla göndə-rib? Elə bilirlər ki, hər şey unudulub. Zənn edirlər ki, kim hakimiyyəti söyürsə, müxalifət odur".

ADP sədri Ə.Kərimlini satqınlıqda da ittiham edib: "Müxalifətin bu günə düşməsinin baiskarı Ə.Kərimlidir. 2003-cü ildə İsa Qəmbərin nami-zədliyi məsələsində Əlinin hansı oyunları oynadı-ğını çox gözəl bilirəm. İsa Qəmbər, Lalə Şövkət, E.Məmmədov və Rəsul Quliyev də yaxşı bilir. Onun həmin vaxt mənə dediyi bir sözü açıqlaya-cağam. Mənə demişdi ki, adım satqın kimi çıxdı-ğına görə, sən bütün qüvvələrin İ.Qəmbərin ətra-fında birləşməsi ideyasını irəli sür, mən də Etiba-ra təzyiq edəcəm. İ.Qəmbəri dəstəkləməsi üçün onun xahişini yerinə yetirdim. Amma onun xarak-teri özünü büruzə verdi. Bizdən xəbərsiz İ.Qəm-bər və E.Məmmədov arasında görüş keçirmişdi. Bizi kənarda qoymaq üçün. Orada da, satqın ol-duğunu göstərdi. Sərdar Cəlaloğlunda hakimiy-yət kreslosu yoxdur. Əli, get hakimiyyətlə davanı apar. Gecə-gündüz 5-10 nəfər tərbiyəsizə məni söydürür, "Azadlıq" qəzetində palaz-palaz yazılar dərc etdirirsən. Bəzən bu əxlaqsız sözlərə cavab verməyə məcbur oluram".

Bax budur, Ə.Kərimlini xisləti. Az qalıb, cina-yət kürsüsünə oturub etdiyin satqınlığa və cina-yətlərinə görə, xalq qalşısında mütləq cavab ve-rəcəksən, Ə.Kərimli!

**R.KAMALQIZI**

# Cəmil Həsənlinin növbəti sərsəmliyi

## *Və ya "Milli Şura" sədri vətəndaşlıq amili ilə terrorçuluğu hələ də anlamır*

Bax budur, qoca "professorun düşüncə" səviyyəsi. Necə deyərlər, aşığın sözü qurta-randa, "yarım-yarım" deyər. Ancaq bu Cəmil Həsənli nə aşıqdır, nə "düşün-cəli adamdır", nə "professordur", nə də "ağsaqqaldır". Çünki ağıllı insan, düşüncəli adam, həqiqi professor və yaxud da ağsaqqal bambılılıq etmir. C.Həsənlidə bu keyfiyyətlərin heç biri yoxdur. Çünki C.Həsənlinin sərsəm id-dialarla çıxış etməsi adi hala çevrilib. Belə ki, onun gah nala, gah mıxa dö-yəcləyərək, hakimiyyətə qarşı qara-yaxma kampaniyaları aparması, həm də nə qədər şərbaz və böhtançı oldu-ğunu sübuta yetirir. Azərbaycandan kənarda fəaliyyət göstərən qərəzli me-dia qurumlarına müsahibələrində də bunun şahidi olmuşuq. Yalanın birini bir qəpikdən sırıyan C.Həsənli haki-miyyətə qarşı ittihamlarını, o dərəcədə artırır ki, hətta ondan müsahibə alan xarici media qurumları belə, bu yalan-lardan təəccüblənirlər.

"Amerikanın səsi"nə verdiyi müsa-hibəsində "Milli Şura"nın sədri öz ya-lanlarını Azərbaycan dövlətinin terrorla mübarizəsinə kölgə salaraq, xalqa və dövlətə qarşı silahlı müqavimət göstər-mək cəhdində olmuş, qanunların tələb-lərinə uymayaraq, müxtəlif silahlı qrup-laşmalarda fəaliyyət göstərmiş şəxslə-rin ölümləri üzərində sırımağa çalış-masıdır. Sərsəm və boşboğaz fikirlər söyləyərək bildirir ki, terrorçunun "sila-hı yerə qoy və təslim ol!" əmrinə tabe olmamalarına görə, cavab atəşi ilə susdurulmaları qanunsuzuymuş və s. Daha dəqiq desək, fakt budur ki, nəin-ki Azərbaycanda, eləcə də, istənilən ölkədə təhlükə saçan terrorçu hüquq-mühafizə orqanlarının təslim olmaq çağırışlarına, əmrinə cavab vermirsə, silahı ilə, istər vətəndaşların həyatına, istərsə də mühafizə orqanlarına qarşı hədəf götürürsə, həmin cinayətkar ye-rindəcə güllələnir. Ancaq bu boşboğaz "professor" deyir ki, terrorçunun məh-kəməsiz-istintaqsız güllələnməsi fikir-ləri məntiqsizdir.

Ən maraqlı məqam isə, C.Həsənli-nin elə müsahibə verdiyi "Amerikanın səsi"nə ABŞ-da bir ildə nə qədər silah-lı cinayətkarların yerindəcə güllələnmə-si faktı barədə niyə danışmayıb? Çünki digər ölkələrdən fərqli olaraq, ABŞ hü-quq-mühafizə orqanları silah təhdidi ol-



masa da, yəni özlərinə qarşı ən cüzi təhlükə hiss edərkən, qarşısındakı in-sanlara atəş açaraq onları qətlə yetirir. Görəsən, qoca və ağlını itirmiş profes-sor yalan iddialarını danışarkən, bu ba-rədə düşünübmü? Əlbəttə ki, yox. Çün-ki bunu deməli olsaydı, "Amerikanın səsi" həmin fikirləri ictimailəşdirməzdi, yaxud C.Həsənli ilə müsahibəsini yarı-da qoyardı. Bir də, belə bir sərsəm id-dia Həsənlinin dünyagörüşünün olma-ması ilə yanaşı, satqın və xəyanətkar olduğunu isbatlayan amillərdir.

### Cəmil Həsənlinin xisləti - öz mənfəətləri üçün terrorçuları "vətəndaş" amili ilə dəyişən mənəviyyatsız xislətdir

Bütün dünya Qarabağın Azərbay-canın ərazisi olduğunu qəbul etdiyi halda, C.Həsənli iddia edir ki, o tor-paqlarda ermənilər də yaşaya bilər. Bu yerdə sənin kimi satqına "azərbaycan-lı" deməyin özü cinayətdir. Nə qədər alçaq düşüncəli və əxlaqsızsan. Bu, nə düşüncədir? Əgər separatçı ermənilər işğal olunmuş ərazilərimizdən azər-baycanlılara qarşı atəş açırlarsa, mülki vətəndaşlarımızı, qadın və qocalarımı-zı, uşaqlarımızı, torpaq sahələrində çalışan zəhmətkeş insanlarımızı terro-rizə edirlərsə və bunun müqabilində, Azərbaycan əsgəri terrorçulara cavab atəşi açaraq, onları məhv edirsə, de-mək, bu, doğru addım hesab oluna bil-məz?! Bax budur, C.Həsənin dar dü-şüncəsinin istehsal etdiyi bəhrəsiz məhsul. Bax, budur belələrinin xisləti - öz mənfəətləri üçün terrorçuları "vətən-daş" amili ilə dəyişib, qara-qışqırıq salmaq, həyasızlıq etmək ənənələri! Lənət olsun belələrinə!..

**Rəfiqə HÜSEYNOVA**

# Müxalifət əlaltı funksiyasını yerinə yetirir

***"Milli Şura" deyilən qondarma qurum mitinq keçirəcə-yini iddia edir, hətta Əli Kərimli bildirir ki, Müsavat partiyası da bu aksiyaya qoşulacaq. Sual olunur? Müsavat başqanı Arif Hacılı və digər partiya funksionerlərinin düşmən münasibəti bəslədiyi Ə.Kərimli ilə eyni mitinqdə iştirak etməsi nə dərəcədə mümkündür? Söhbət etdiyimiz müsahiblə-rimiz iki rəqib və iddialı partiyanın hansısa tədbirdə və ya aksi-yalarda iştirak etmələrinin mümkün olmadığını bildirdilər.***

*"Yurddaş" partiyasının sədri Mais Səfərli:* **"AXCP ilə Müsavat partiyaları arasında çox ciddi ziddiyyətlər var "**



- Adları çə-kilən partiyalar, bəzən görürsən ki, görüntü xati-rinə mehriban-laşırlar, bəzən də görürsən ki, düşmənə çevrilirlər. Ümumiyyətlə, AXCP ilə Müsavatın fəaliyyətinə diqqət yetirəndə, görərik ki, bu par-tiyalar müəyyən vaxtlarda özlərini bir partiya kimi göstərmək istəyib-lər. Bütün bunlar da Qərbdə olan bəzi qüvvələrin diqqətini özlərinə cəlb etməkdən irəli gəlir. "Milli Şu-ra"da təmsil olunanlar xaricdə olan qüvvələrin xoşuna gəlmək üçün bəzən görürsən ki, görüntü xaritinə birləşirlər. Amma AXCP ilə Müsa-vat partiyaları arasında çox ciddi ziddiyyətlər var. Bu ziddiyyətlərin də kökündə siyasi qruplara başçı-lıq edən liderlərin ambisiyalarının bir-birinə zidd olması və o ambisi-yalarının toqquşması ilə bağlıdır. Çünki bunlar bir-birinə heç nəyi güzəştə getmək istəmirlər. Yadıma bir atalar sözü düşür, deyir "utan-masan, oynamağa nə var ki". Bu il-lər ərzində, müxalifət düşərgəsini təmsil edən partiyaların keçirdikləri heç bir aksiyaları baş tutmayıb. Sə-bəb də, xalq tərəfindən heç bir dəs-təklərinin olmamasıdır. Bu baxım-dan da, planlaşdırdıqları növbəti aksiyalar da iflasla nəticələnəcək. Sadəcə olaraq, bu qüvvələr gün-dəmdə qalmaq üçün, adlarının hal-landırılması üçün bu cür anormal hərəkətlərə əl atırlar. Demək olar ki, hər dəfə adları çəkilən qüvvələr mitinqlər keçirdikcə, onlar daha çox gözdən düşürlər.

*"Azadlıq Hərəkatçılar Birli-yi"nin sədri Təhmasib Novruzov:* **"Müxalifətə puldan-zaddan verib qışqırdırlar"**

- Ümumiyyətlə, bu adamlar şəxsiyyəti, mənliyi olmayan adam-lardır. Şəxsiyyəti, mənliyi olmayan adamlar da cə-miyyət, ictima-iyyət qarşısın-da bu gün dö-yüşər, söyüşər, sabah öpüşər görüşər və be-lə adamlar



üçün qətiyyət, prinsipiallıq deyilən bir şey yoxdur. Bu məsələnin bir tərəfi, digər tərəfdən, bunların ha-mısı eyni mərkəzdən idarə olunan qüvvələrdir. Yeni Qərb tərəfindən nə göstəriş verilirsə, o göstərişə də əməl etməyə məcburdurlar. Çünki onların maliyyələri həmin xarici qüvvələrdən gəlir. Bir sözlə, bunlar maliyyə buraxan şəxslərin tapşırığından və göstərişindən kə-nara çəkilə bilməzlər. Məlum olan odur ki, lazım gələndə, bunları bir-biri ilə dalaşdırırlar, lazım gələndə də, hər ikisinə göstəriş verirlər ki, birləşsinlər və bir yerdə hansısa tədbiri keçirsinlər. Bunların da xa-ricdən gələn həmin göstərişi icra etməməyə ixtiyarları yoxdur. Ümu-miyyətlə, elə arasında gözəl bir məsəl var: "dəliyə yel, əlinə bel ver" deyirlər. Əlbəttə bunları Ko-roğlunun dəliləri ilə müqayisə et-mirik, burada söhbət Koroğlu dəli-lərindən getmir. Birbaşa məhz tib-bi nöqteyi-nəzərdən 9b dəlilərin-dən söhbət gedir ki, bunlar 9b-di-lər. Yəni bunların yelləri, havala-rını da Qərbdən ermənipərəst qüv-vələr müəyyənləşdirirlər. Bunların əllərinə yel verirlər, yəni puldan-zaddan verib qışqırdırlar". Xarici qüvvələr də öz məkrli məqsədləri-nə çatmaqdan ötürü bunlardan bir vasitə kimi istifadə edirlər. Ona görə də, bunların şərəfsiz addımlar atmaları gözlənilməndir.

**GÜLYANƏ**

# Avropada qadınların diskriminasiyası

***XVI-XVII əsrlərdən başlayaraq kapitalizmin ilkin formaları Böyük Britaniya və Benilüks ölkələrində ortaya çıxmağa başladı. Çünki 1453-cü ildə Konstantinopolun türklər tərəfindən fəth edilməsi ilə Avropa-Şərq ticarət yollarının bağlanması, Avropada real hakimiyyətə malik olan İtaliya bankirlərinin Qərbi Avropaya, əsasən, Böyük Britaniyaya sığınmalarına şərait yaratdı. Bu dövrdə Avropa səyyahları Şərqə və Amerikaya yeni ticarət yolları açdılar. Böyük maliyyənin və dərin kəşfiyyat məlumatlarının Böyük Britaniya və ABŞ-a cəmlənməsi, Avroatlantik qütbün formalaşmasına təkan verdi. Artıq Romadan Avropanı idarə etməyə çalışan katolik kilsə üçün, böyük və təhlükəli bir rəqib meydana çıxdı. Bunun üçün, kilsənin nəzarəti altında olan ənənəvi sosial-siyasi sistem yenisi ilə əvəz olunmalı idi. Bu yenilik, Böyük Britaniyada meydana çıxan ilk kapitalizm ideyaları oldu.***

Fəlsəfə üzrə fəlsəfə doktoru Rauf Məmmədov yazır: "Buxar maşınının meydana çıxması, aqrar sistemin tədricən sənayeləşməsinə, yeni sənaye şəhərlərinin formalaşmasına və kəndlilərin şəhərləşməsinə şərait yaratdı. Çünki XV əsrdə İngiltərədə və sonra Almaniyada, eləcə də, digər Avropa ölkələrində kəndlilərin torpaqlarının əllərindən alındığı və gəlir mənbələri məhdudlaşdığı üçün, sənaye mərkəzlərinə manufakturalara axın artmışdı. Bu manufakturaları və onlara kredit verən bankları idarə edənlər də əvvəlki bankir ailələri və onların himayə etdikləri adamlar idi.

Digər tərəfdən, katolik kilsəsi ilə protestantlar arasında uzun sürən vətəndaş münaqişələri ənənəvi sistemin süqutunu sürətləndirirdi. Bu münaqişələrin ilk başlanğıcının, Mediçi ailəsinin üzvü olan Papa X Lev Covanni tərəfindən gətirilən indulgensiya məsələsi olduğunu nəzərə alsaq, bu qarşıdurmalarda Mediçilərin rolunun olduğunu iddia edə bilərik. Katolik kilsəsi ilə protestantlar arasında uzun sürən vətəndaş münaqişələri cəmiyyətdə dinə olan ənənəvi münasibəti dəyişdi və yeni yaranmaqda olan sekulyar liberal ideyalara rəğbəti artırdı. Liberalizm dəyərləri və kapitalizm sistemi cəmiyyətin həyatında inkişaf etdikcə, dünyada fərqli bir sivilizasiyanın - Qərb sivilizasiyasının ortaya çıxmasına şərait yaratdı. Qərbi Avropada ortaya çıxan müasir tipli sənaye şəhərlərinin sakinləri və onların ailələri ənənəvi insanlardan və ailələrdən fərqlənirdi. Bu, özünü şəhər və kənd, kültür və sizilizasiya qarşıdurmasında göstərdi. Bu sosial-iqtisadi transformasiyalar, ailə qurumunun və qadının cəmiyyətdəki gender rolunun dəyişməsinə şərait yaratdı. K.Marks, bunu, feodalizmdən kapitalizmə keçid dövrü kimi səciyyələndirmişdi."

Kəndlərdən şəhərlərə kütləvi axın nəticəsində, şəhərlərdə əhali sıxlığı, məskunlaşma, qidalanma və sağlamlıq problemləri artdı. Manufakturalarda çalışanlar kiçik evlərdə kirayələnmək və çalışaraq kirayə haqqını ödəmək məcburiyyətində idilər. Ənənəvi ailələrdə qadınlar yalnız evdə çoxsaylı uşaqlara baxırdılarsa, yeni şəraitdə bunlar mümkün deyildi.

Müəllifin fikrincə, mövcud sosial-iqtisadi vəziyyət, mexaniki surətdə ailələrdə uşaqların sayının azalmasına və kiçik monoqam ailələrin artmasına səbəb oldu. İş saatının çox olması, həmçinin, uşaqlara baxan qadınların fiziki imkanlarını məhdudlaşdırırdı. Bu, qadın-uşaq ölümlərinin çoxalmasına şərait yaratdı. Çünki abortlar üçün tibbi xidmətlərin, sanitariya-gigiyena səviyyəsinin olmaması ilə yanaşı, texniki təhlükəsizlik məsələləri də çox aşağı səviyyədə idi.

Yeni kapitalist münasibətləri sisteminə tədricən ənənə ilə modernləşmənin konvergensiyası şəraitində keçid etmək məqsədəuyğun hesab olunurdu. Bir çox Avropa monarxiyaları bu inkişaf yolunu tutdular (bunu, müasir Böyük Britaniya, İspaniya, Hollandiya, İsveç və digərlərində görmək olar). Liberal ideyalar haradan qaynaqlanırdı?

R.Məmmədov yazır: "Kapitalizmin fəlsəfi paradiqmasının təməli Böyük Britaniyanın fəlsəfi məktəbində qoyulmuşdur. Böyük Britaniyada Tomas Qobbs və Con Lokk arasında insanın təbiəti, əxlaqı və ona uyğun olan sosial sistem barədə davam edən mübahisələr liberal düşüncənin təməlini formalaşdırdı. T.Qobbsun "İnan insan üçün canavardır və cəmiyyəti bu təhlükədən qorumağın yegənə yolu güclü dövlətdir (Leviafan)" tezisinə qarşı, 1669-cu ildən Kral Cəmiyyəti Şurasının üzvü olan C.Lokk "insan beyni təmiz lövhədir (tabula rasa) və onu formalaşdıran sosial mühitdir" antitezisini ortaya qoydu. Leviafan ideyası fərdin azad inkişafına, onun mənəvi potensialını üzə çıxarması və cəmiyyətin tərəqqisinə (proqres) sədd çəkirdisə, C.Lokkun dinamik sosial mühit ideyası proqresə əsaslanırdı.

C.Lokkun görüşündən belə bir nəticə çıxırdı ki, güclü dövlət qapalı və zorakı bir sistem yaratdığı üçün, gec-tez ortadan qalxacaq, lakin, vətəndaş cəmiyyətinin tərəqqisi dövlətlərin ortadan qalxması ilə dayanmayacaq və irəli gedəcəkdir. Buna görə də, belə bir nəticəyə gəlindi ki, sosial inkişafın əsas meyarı dövlət deyil, vətəndaş cəmiyyətinin sonsuz proqresidir. ,

Proqres əsas meyar olduğu üçün, onun dinamikasına mane olan bütün ictimai institutlar (dövlət, din, ailə) deformasiya, adaptasiya və ya ləğv olunmalı və proqresin əsas ölçü vahidi individ (fərd) olmalıdır. Proqres və individ münasibətlərindən ortaya çıxan yeni dünyagörüşü sistemi - liberalizmdir. Əslində, proqresin fəlsəfəsi kapitalizmin dünyada genişlənməsinə, individin isə, bu məqsədə xidmət etməsinə yönəlmişdir."

C.Lokkun liberal görüşünü iqtisadi tərəfdən inkişaf etdirən Böyük Britaniya alimi Adam Smit oldu. O, Lokkun liberal ideyaları bazasında "azad ticarət" (free trade) ideyasını ortaya atdı və bildirdi ki, hər bir şəxs kimliyindən asılı olmayaraq, sərbəst sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər. Liberal iqtisadiyyat o zaman inkişaf edə bilər ki, o, milli deyil, transmilli xarakter daşısın. Çünki dövlət sərhədlərinin mövcudluğu şəraitində merkantilizm iqtisadiyyatın inkişafına mane olur. Buna görə də, liberal iqtisadiyyat və demokratiya proqresin təmsilçisi kimi dövlətin rolunu sıfıra endirməyə, fərdin rolunu isə yüksəltməyə yönəlir. Demokratiyanın və bazar iqtisadiyyatının dünyada genişlənməsi, bazarların genişlənməsinə, dövlətlərin ortadan qalxmasına və transmilli qurumların vətəndaş cəmiyyəti üzərində gizli hakimiyyətinə şərait yaradır.

Fərdin azad seçiminə və sərbəstliyinə əsaslanan liberal sistem, onda laqeydlik, eqoizm, özgələşmə və insafsızlıq hissini gücləndirir.

Çünki kollektivizmi təmsil edən qurumların (qohumluq, qonşuluq, ailə) zəifləməsi və ortadan qalxması buna şərait yaradır. İnsan bu sistemdə özü-özünün məqsədinə çevrilən "homo ekonomikus" fenomeninə çevrilir və gedonizm, utilitarizm, praqmatizm, rasional eqoizm, ateizm, kosmopolitizm və konfortizm onun əsas əxlaq kodeksi olur. Bunlar, patriarxal böyük ailələri sıradan çıxarmaqla və individualizm fəlsəfəsini ortaya qoymaqla, qadın şəxsiyyəti problemini aktuallaşdırdı. Digər tərəfdən, istehsalın artması və yeni bazarların ələ keçirilməsi strategiyası, qadınların ucuz işçi qüvvəsi kimi ev-ailə işlərindən sosial-iqtisadi işlərə cəlb olunması məsələsi, feminizmin meydana çıxmasına şərait yaratdı.

Sənayenin yaranması və inkişafı ilə istehsal olunan məhsulların səviyyəsi və onun vasitəsilə əldə edilən gəlirlər artdı. Artıq kapitalistlər öz gəlirlərini artırmaq üçün xarici bazarlara çıxış üçün imperialist siyasət mərhələsinə qədəm qoydular. Lakin buna baxmayaraq, sənaye şəhərlərində formalaşan sosial-iqtisadi mühit o qədər dözülməz idi ki, fəhlələr öz hüquqlarını tələb etmək üçün həmkarlar təşkilatlarında birləşməyə başladılar. XIX əsrin ortalarında daxili narazılıqlar sosial qarşıdurmalara, üsyanlara (1848-ci il Paris üsyanları) və nəticədə,sosializm, kommunizm, anarxizm ideyalarının ortaya çıxmasına və sosial-demokrat hərəkatının formalaşmasına təkan verdi. Bu sosial-inqilabi proseslər Avropada tədricən sosial dövlət modelinin inkişaf etməsinə səbəb oldu ( 8 saatlıq iş saatı, tibbi sığorta, işsizlərə vəsaitlərin ayrılması, təqaüdlərin verilməsi və s.).

XVII-XVIII əsrlərdə Avropada qadınların diskriminasiya olunduğunu bildirən feminizm ideyaları İtaliya (Laura Çereta, Kristina Pizanski, İzotta Noqarolla), İngiltərə (Afri Ben, Meri Estel), fransız (Pulena de lya Bara) qadın yazıçılarının əsərlərində öz əksini tapdı. Avropa maaarifçiləri (Volter, Qelvetsi, Monteskiye) də feminizmin ideyalarından çıxış edərək, qadınların cəmiyyətin həyatında fəal rol oynamalarını dəstəklədilər. Feminist qadınlar və onların ideologiyasını dəstəkləyənlər Avropanın müxtəlif şəhərlərində artmağa başladı. İstehsala cəlb olunan qadınların arasında təhsil imkanlarının genişlənməsi və onların siyasi baxımdan fəallaşmalarına səbəb oldu.

Qadınların təhsil səviyyəsi yüksəldikcə, onların diskriminasiya səviyyəsi də azalırdı. Buna görə də, feministlər, qadınların ali təhsil almaları uğrunda mübarizə aparırdılar. Çünki qızların təhsil səviyyəsinin artması, erkən evliliklərin ortadan qalxmasına şərait yaradırdı. Artıq cəmiyyətdə qadın əməyinə tələbat yaranırdı. Bu tələbat, onların cəmiyyətdə yeni gender rollarının müəyyənləşməsinə şərait yaradırdı. Bu proseslər, tədricən, müxtəlif Avropa şəhərlərində yaşayan fəal feministlərin təşkilatlanmalarına və cəmiyyətin siyasi həyatında fəal rol oynamalarına səbəb oldu.

R.Məmmədov göstərir ki, XIX əsrin ortalarında Böyük Britaniyada meydana çıxan sufrajizm hərəkatı, yəni qadınların siyasi bərabərlik hüquqları uğrunda mübarizəsi nəticəsində, 1893-cü ildə Yeni Zellandiyada, 1902-ci ildə Avstraliyada, 1918-ci ildə İngiltərədə və Azərbaycan Xalq Cümhuriyyətində qadınlar seçmək və seçilmək hüququ əldə etdilər. Qadınların siyasi hüquqlarının əldə olunması, onların işləmək və təhsil almaq imkanlarını genişləndirdi. Bu feminizmin ilk dalğası idi. Göründüyü kimi, bu dalğanın meydana çıxması və inkişafı, Böyük Britaniya dövlətinin strateji idarəetmə mexanizminə aid idi. Çünki Yeni Zellandiya və Avstraliya Böyük Britaniyanın himayəsi altında idi, 1918-ci ildə AXC-nin belə bir qərar verməsi də müsəlman ölkələri, ümumiyyətlə, dünya üçün gözəl bir nümunə idi.

Dünyanın yenidən formatlanması üçün, feminizm xüsusi əhəmiyyətə malik idi. Çünki feminizm, qadın şəxsiyyətini patriarxal ailə kollektivindən təcrid edən individual şüuru formalaşdırırdı. Şəhərlərdə formalaşan yeni cəmiyyət, bir-biri ilə siyasi-iqtisadi maraqlar üzərində şəbəkə sistemi quran ənənəvi patriarxal ailələrdən deyil, yalnız özü və kiçik ailəsi üçün yaşayan pərakəndə fərdlərdən və kiçik monoqam ailələrdən ibarət idi. Bu cəmiyyətin kütləvi informasiya vasitələri ilə müəyyən bir ideoloji istiqamətdə idarə olunması daha asan idi. Cəmiyyət, əvvəlki kimi, böyük ailələrin və tayfaların siyasi-iqtisadi maraqları üzərində deyil, siyasi-ideoloji qrupların mübarizəsi üzərində idarə olunurdu. Bu idarəetmə sistemi ayın görünən tərəfi, onun görünməyən tərəfi isə, yenə ənənəvi monarxiya strukturu idi. Bu, milli dövlətçiliyin imperializm mərhələsinə keçidini təmin edirdi. Liberal siyasi və iqtisadi dəyərləri qəbul etmədən, buna nail olmaq mümkün deyildi. Buna görə də, Böyük Britaniya və bir çox Avropa ölkələri transformasiyalara getməklə, öz ənənəvi sistemlərini də qoruyubsaxlaya bildilər. Bu işdə feminizm, əsas ideoloji silaha çevrildi. Osmanlı və Çar Rusiyasının süqutu da feminizm vasitəsilə baş verdi.

XIX-XX əsrlərdə liberal dəyərlərin Avropada və digər ərazilərdə yayılması, ənənələrin zəifləməsinə, patriarxal ailə qurumunun ortadan qalxmasına və onlar üzərində qurulan siyasi sistemlərin çökməsinə şərait yaratdı. Qadınların ev-ailə mühitindən sosial mühitə çıxmaları və bu mühitdə onlara tələblərin yaranması, erkən evlilik ənənəsinin tədricən ortadan qalxmasına şərait yaratdı. Katolik kilsəsi 1917-ci ildə kanonik hüququn kodeksini qəbul edəndən sonra qızlarda evlilik yaşını 12-dən 14-ə, oğlanlarda isə 14-dən 16-ya qaldırdı (bu gündək belədir). Katolikliyin geniş yayıldığı ölkələrdən olan İspaniyada nikah yaşı yalnız 2015-ci ildə 14-dən 16-ya qaldırıldı.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*



# “Pedaqoqlar” ərazi ilk partiya təşkilatının idarə heyətinin iclası keçirilib

Dünən Yeni Azərbaycan Partiyasının Səbail rayon təşkilatının “Pedaqoqlar” ərazi ilk partiya təşkilatının idarə heyətinin iclası keçirilib. İclası giriş sözü ilə YAP-ın Səbail rayon təşkilatının “Pedaqoqlar” ərazi ilk partiya təşkilatının idarə heyətinin sədri, professor Himalay Qasımov açaraq, partiyanın ali təhsil müəssisələrindəki strukturlarının təkmilləşdirilməsi sahəsində qarşıya qoyulan mühüm vəzifələrdən danışıb: “”Pedaqoqlar” ərazi ilk partiya təşkilatı Səbail rayon təşkilatının aparıcı və fəal təşkilatlarından biridir. Təşkilat ölkəmizin ictimai-siyasi həyatında, o cümlədən, rayon və respublika miqyasında keçirilən tədbirlərdə fəal iştirak edir. ADPU-da həyata keçirilən islahatlar, yeniliklər və layihələr universitetimizin nüfuzunun yüksəlməsini təmin edib. Biz bu islahatlara, yeniləşmə və müasirləşmə prosesinə əməli fəaliyyətimizlə dəstək verməliyik”.

H.Qasımov “Pedaqoqlar” ərazi ilk partiya təşkilatının strukturunun təkmilləşdirilməsi üçün həyata keçirilməsi nəzərdə tutulan vəzifələr barədə də ətraflı məlumat verib.

İclasda ADPU-nun rektorunun köməkçisi, YAP-ın Səbail rayon təşkilatının gənclər birliyinin sədri Riyad Rüstəmli, “Pedaqoqlar” ərazi ilk partiya təşkilatının idarə heyətinin sədr müavini, dosent Sultanəli Qurbanov, dosent Eldar Aslanov, professor Fərrux Rüstəmov, dosent Arzu Daşdəmirov, baş müəllim Əsbət Teymurova və başqaları çıxış edərək, ərazi ilk partiya təşkilatının strukurunun təkmilləşdirilməsi və müasir tələblərə uyğun fəaliyyət göstərməsi üçün təkliflər irəli sürüblər.

İclasa yekun vuran ADPU-nun rektoru, professor Cəfər Cəfərov qeyd edib ki, “Pedaqoqlar” ərazi ilk partiya təşkilatının fəaliyyətinin yenidən qurulması və gücləndirilməsi günün tələbidir: “İstənilən siyasi partiyanın gücü təbliğatdadır. Təbliğat həm sözlə, həm də əməli fəaliyyətlə aparılmalıdır. Yeni dövr qarşıya yeni və müasir tələblər qoyur. Ərazi ilk partiya təşkilatının şəbəkələşmiş struktura malik olması olduqca vacibdir. Partiya təşkilatı çevik və dəqiq işləməli, koordinasiya olunmuş fəaliyyət həyata keçirməlidir. Yalnız bu halda, partiya təşkilatı qarşıya qoyduğu bütün hədəf və məqsədlərə çata bilər”.

***R.KAMALQIZI***

# YAP Pirallahı rayon təşkilatı İmadəddin Nəsimiyə həsr olunmuş bədii qiraət müsabiqəsi keçirib

Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatında Azərbaycan ədəbiyyatında ictimai - fəlsəfi şeirləri ilə xüsusi yer tutan, klassik mütəfəkkir şair İmadəddin Nəsiminin anadan olmasının 650 illiyi münasibətilə bədii qiraət müsabiqəsi keçirilib.

Bədii qiraət müsabiqəsi rayonun ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri arasında keçirilib və müsabiqədə unudulmaz şair Nəsiminin şeirlərindən istifadə olunub. Mütəfəkkir şairin şeirlərində, qəzəllərində dərin poetik fikirlər, fəlsəfi görüşlər və dövrün elmi-fəlsəfi düşüncəsi aydın ifadə edilib.



Müsabiqənin qalibləri Fəxri Fərman və digər hədiyyələrlə mükafatlandırılıblar. Məlumatda həmçinin qeyd edilir ki, qaliblər Azərbaycanın klassik mütəfəkkir şairi İmadəddin Nəsiminin anadan olmasının 650 illiyi münasibəti ilə keçiriləcək ümumrespublika müsabiqəsində də iştirak edəcəklər. Beləliklə, 20 gəncin iştirak etdiyi müsabiqədə gənclərin bacarığı münsiflər heyəti tərəfindən qiymətləndirilib. Yekun rəyə əsasən, bədii qiraət müsabiqəsində 168 №-li tam orta məktəbin XI sinif şagirdi Məmmədzadə Qorxmaz Şakir oğlu birinci yer, 186 №-li tam orta məktəbin XI sinif şagirdi Mehralıyeva Lalə Qabil qızı ikinci yer, 235 №-li tam orta məktəbin XI sinif şagirdi Kərimli Hidayət Emin oğlu isə, üçüncü yerə layiq görülüblər.

Xatırladaq ki, Prezident İlham Əliyevin qərarı ilə bu il Azərbaycanda Nəsimi İli elan olunub.

***Rövşən RƏSULOV***


# səs

**Son səhifə** **19 iyun**


# Oğuz rayonunda Milli Qurtuluş Gününə həsr olunmuş tədbir keçirilib



***Oğuz rayon icra hakimiyyətinin iclas zalında 15 İyun Milli Qurtuluş Günü münasibətilə tədbir keçirilib. Tədbirdə Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***

Tədbiri giriş sözü ilə açan Oğuz rayon icra hakimiyyəti başçısının müavini Yusubov Etibar Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətinə nəzər salıb.

Tədbirdə YAP Oğuz rayon təşkilatının sədri Saleh Məhərrəmov geniş məruzə ilə çıxış edərək, Ümummilli Lider müasir Azərbaycanın qurucusu və memarı, Dahi Şəxsiyyət Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısında misilsiz xidmətlərindən danışıb. Bu gün də bu siyasətin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini qeyd edib.

Tədbirdə çıxış edən Teymur Atakişiyev və başqaları bildiriblər ki, Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın bugünkü uğurlarını təmin edən ən başlıca şərtdir. Ulu Öndərin uzaqgörən siyasəti nəticəsində, Azərbaycanın müstəqilliyinin təməlləri möhkəmləndi. Qeyd olunub ki, Ulu Öndərin qurub-yaratdığı Azərbaycan müasir dövrümüzdə Möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən daha da qüdrətləndirilərək, regionun lider dövlətinə çevrilib.

Tədbirdə Respublika Fənn Olimpiadalarında yüksək nailiyyət əldə edən 6 nəfər şagirdə YAP Oğuz rayon təşkilatı və Oğuz Rayon Təhsil Şöbəsi tərəfindən pul mükafatı təqdim edilib.

Gənc nəslin təlim-tərbiyəsində xidmətlərinə və şagirdlərinin Respublika Fənn Olimpiadasında əldə etdikləri yüksək nəticələrə görə, 4 nəfər müəllim Emin



Əzimli, Mətanət Kərimova, Samir Cəbrayılov və Şəfəq Hacıyeva YAP Oğuz rayon təşkilatı və Oğuz Rayon Təhsil Şöbəsinin Fəxri Fərmanı ilə təltif olunub.

Sonda tədbir iştirakçıları tərəfindən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət qəbul olunub.

***ZÜMRÜD BAYRAMOVA***

# İmadəddin Nəsiminin 650 illik yubileyi ilə bağlı qiraət müsabiqəsi keçirilib

## YAP Xaçmaz rayon təşkilatı məktəblilər arasında qalibləri müəyyən edib





Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin böyük Azərbaycan mütəfəkkiri İmadəddin Nəsiminin 650 illik yubileyi münasibəti ilə 2019-cu ilin “Nəsimi İli” elan edilməsi haqqında Sərəncamı ölkə rəhbərinin mədəni irsimizə necə bir dəyər verdiyinin bariz nümunəsidir. Dövlət başçısının müvafiq Sərəncamına əsasən, Nəsiminin 650 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması ölkədə mədəniyyətimizə və incəsənətimizə göstərilən ən yüksək qiymətdir. Bu Sərəncamla bağlı ölkə səviyyəsində Nəsimi irsi bütün ölkə ictimaiyyəti tərəfindən geniş müzakirə edilir və müxtəlif tədbirlər keçirilir.

Dünən YAP Xaçmaz rayon təşkilatı və Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə rayonun ümumtəhsil məktəblərinin 9-11-ci sinif şagirdləri arasında 3 mərhələdən ibarət Azərbaycanın dahi şairi İmadəddin Nəsiminin 650 illiyinə həsr olunmuş qiraət müsabiqəsi keçirilib. Münsiflər heyətinin qərarı ilə şeir müsabiqəsində qalib gəlmiş şagirdləri YAP Xaçmaz rayon təşkilatının fəxri fərmanları ilə mükafatlandırılacaq.

***R.HÜSEYNOVA***


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**